**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**MAGİSTRATURA MƏRKƏZİ**

Əlyazması hüququnda

**Nağızadə İlahə Aydın qızı**

# AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONAL ÜMUMİ DAXİLİ MƏHSULUN HESABLANMASININ METODOLOJİ MƏSƏLƏLƏRİ

## MAGİSTR DİSSERTASİYASI

| | |
|---|---|
| **İxtisasın şifri və adı:** | **060406 - STATİSTİKA** |
| **Elmi rəhbər:** | **Magistr proqramının rəhbəri:** |
| **Prof. S.M.Yaqubov** | **Dos.V.E. Teymurova** |
| **KAFEDRA MÜDİRİ:** | **Prof. S.M. Yaqubov** |

**BAKI - 2015**

**Giriş** **3**

**Fəsil I.Azərbaycan Respublikasında Milli Hesablar Sisteminin (MHS) tətbiqinin müasir vəziyyəti və inkişaf perspektivləri** **7**

**§1.1.** MHS iqtisadiyyatın makrostatistik modelidir 7

**§1.2.** Azərbaycan Respublikasında MHS-in tətbiqinin müasir vəziyyəti, onun inkişaf perspektivləri və makroiqtisadi təhlildə istifadə istiqamətləri 15

**Fəsil II. Azərbaycan Respublikasında MHS-in regional göstəricilərinin hesablanması və təhlili metodları** **23**

**§2.1.** MHS-in regional göstəricilərinin hesablanmasının əsas prinsipləri, metodları və xüsusiyyətləri 23

**§2.2.** RÜDM-un hesablanmasında istifadə olunan statistik vahidlərin rolu və əhəmiyyəti 32

**§2.3** MHS-in istehsal hesabının əsas komponentləri və RÜDM-ə onların təsiri 37

**Fəsil III . Regionların ÜDM-un statistik təhlili və proqnozlaşdırıması** **47**

**§3.1** Azərbaycanda ÜDM-un dinamikasının statistik təhlili 47

**§3.2** Regionların ÜDM-un artırılmasının əsas istiqamətləri və prqnozlaşdırıması 54

**Nəticə** **69**

**İstifadə olunmuş ədəbiyyat** **73**

# *GİRİŞ*

**Mövzunun aktuallığı**. Milli Hesablar Sistemi (MHS) iqtisadiyyatın makrosəviyyədə vəziyyəti və inkişafının təsviri və təhlili üçün bütün dünyada istifadə edilən qarşılıqlı əlaqəli göstəricilər və təsnifatlar sistemidir. MHS müasir iqtisadi statistikanın ən mühüm bölməsidir. Onun əhəmiyyəti birincisi, ən mühüm makroiqtisadi göstəriciləri özündə əks etdirməsində, ikincisi isə, bütün iqtisadi statistikanın harmonikləşdirilməsi və inteqrasiyanın səmərəli aləti olması ilə müəyyənləşir: iqtisadi statistikanın müxtəlif bölmələrində istifadə edilən təriflər, təsnifatlar və göstəricilər MHS-in müvafiq tərifləri, təsnifat və göstəriciləri ilə bir araya gətirilmişdir. MHS öz inkişafında iqtisadi proseslərin müxtəlif aspektlərini əhatələməklə genişlənərək, iqtisadiyyatın sektor və sahələri üçün hesablar tətbiq etməklə (bütövlükdə iqtisadiyyat üçün hesablara əlavə olaraq) təhlilləri dərinləşdirərək, sistemin müxtəlif bölmələri və makroiqtisadi statistikanın müvafiq sahələri arasında harmonikliyə cəhd edərək bir neçə mərhələdən keçmişdir. Müasir MHS makroiqtisadi statistikanın ümumi konsepsiyalar, təriflər və təsnifatların köməyi ilə ən mühüm bölmələrinin göstəricilər bloklarının məcmusudur.

Bazar iqtisadiyyatı şəraitində ən geniş yayılmış ölçü vahidlərindən biri dəyər ölçü vahididir. Müxtəlif istehlak dəyərlərinə malik olan hadisələrin ümumi həcmini dəyər ölçü vahidində ifadə etmək mümkündür. Belə ki, beynəlxalq təcrübədə qəbul edilmiş milli hesablar sistemində mühüm dəyər göstəricilərindən biri ümumi daxili məhsuldur. Bu dissertasiya işində Milli hesablar Sistemi, onun tərkib hissələri, Azərbaycanda Milli Hesablar Sisteminin tətbiqi, onun hesablanması yolları, Ümumi Daxili Məhsul, Azərbaycanda ÜDM-un dinamikası ətraflı şəkildə tədqiq olunur.

ÜDM milli hesablar sistemi əsasında müəyyən edilir, bütün rezident istehsal vahidlərinin fəaliyyətinin son nəticələrini xarakterizə edir. İqtisadi istehsal konsepsiyası çərçivəsində mərkəzi makroiqtisadi göstərici ümumi daxili məhsul (ÜDM) və ümumi milli gəlir (ÜMG) göstəricilərdir. Bu göstəricilər ölkədə iqtisadi fəallığın və əhalinin rifahının ümumi indikatoru hesab olunur. Onlar iqtisadiyyatın

inkişaf səviyyəsini, nisbətlərini, artım sürətini müəyyən etmək, dövlətin iqtisadi siyasətinin uğurlu olubolmadığını qiymətləndirmək, ölkələrin və bölgələrin iqtisadi inkişaf səviyyəsini müqayisə etmək üçün geniş istifadə olunur. ÜDM və ÜMG göstəriciləri iqtisadi təhlil aparılarkən əhalinin ümumi sayı, iqtisadi fəal və məşğul olan əhalinin sayı ilə, istehsl resurslarının həcmi, investisiyaların həcmi, əmək haqqı fondu, müxtəlif istiqamətdə dövlət xərclərinin məbləği, əhalinin real gəlirləri və xərcləri ilə və başqa göstəricilərlə müqayisə edilir.

Göstəricilər sisteminin beynəlxalq praktikada qəbul edilən standartlara və yanaşmalara uyğunlaşdırılması zəruridir ki, müstəqim beynəlxalq müqayisələr aparmaq imkanı yaransın. Söhbət makroiqtisadi hesablamalarda milli hesablar sisteminin  geniş tətbiq olunmasından gedir ki, bu da mühasibat uçotunun bütün sisteminin köklü surətdə dəyişdirilməsini tələb edir. Bu zaman bəzi alimlərin xalq təsərrüfatı balanslarından imtina etmək fikri ilə razılaşmaq olmaz. Kapitalist ölkələrinin məşhur iqtisadçıları təsdiq edirlər ki, xalq təsərrüfatı balansları analitik məqsədlər üçün çox vacibdir. Bu gün inkişaf etmiş ölkələrin statistikasına başqa cür yanaşmaq lazımdır: faydalı nə varsa ölkə statistikasında tətbiq olunmalıdır. Bu ilk növbədə seçmə müşahidələrinin keçirilməsi təcrübəsinə, milli hesablar sisteminin qurulmasına, ümumi daxili məhsulun və ümumi milli gəlirin hesablanma metodologiyasına, əhalinin gəlirlərinin indeksləşdirilməsinə və s. aiddir.

**Tədqiqat işinin məqsədi** Regional Ümumi Daxili Məhsulun hesablanmasının metodoloji aspektlərini araşdırmaq və onun analitik imkanlarını əsaslandırmaqdan ibarətdir.

Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı **vəzifələrin** yerinə yetirilməsi zəruri hesab edilmişdir:

-İqtisadiyyatın makrostatistik modeli kimi Milli Hesablar Sisteminin təhlil və proqnozlaşdırmada rolunu araşdırmaq,

-Azərbaycanda Milli Hesablar Sisteminin tətbiqinin müasir vəziyyəti və inkişaf perspektivlərini tədqiq etmək,

-MHS-in regional göstəricilərinin hesablanmasının əsas prinsiplərini, metodlarını və xüsusiyyətlərini öyrənmək,

-Regional Ümumi Daxili Məhsulun (RÜDM) hesablanmasında istifadə olunan statistik vahidlərin rolu və əhəmiyyətini araşdırmaq,

-Azərbaycanda Ümumi Daxili Məhsulun dinamikasını statistik təhlil etmək,

-Regional Ümumi Daxili Məhsulun həcmini proqnozlaşdırmaq.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqat işinin predmeti Azərbaycanda Regional Ümumi Daxili Məhsulun hesablanmasının metodoloji aspektləri, obyekti RÜDM-nin müasir vəziyyəti və inkişaf perspektivləridir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

**-** Mühüm makroiqtisadi göstəricilərin formalaşmasında Ümumi Daxili Məhsulun rolu müəyyənləşdirilmişdir,

**-** Milli Hesablar Sisteminin mühüm xüsusiyyətləri aşkar edilmişdir,

- Ölkədə Milli Hesablar Sisteminin cari vəziyyəti statistik təhlil edilmiş və onun inkişaf xüsusiyyətləri müəyyənləşdirilmişdir,

- Regional Ümumi Daxili Məhsulun həcminin qısamüddətli proqnozu verilmişdir.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Tədqiqat prosesində əldə edilən elmi-nəzəri və praktiki nəticələrdən Ümumi Daxili Məhsulun müxtəlif dövrlər üzrə müqayisəsində və proqnozlaşdırılmasında, Milli Hesablar Sisteminin əsas makroiqtisadi göstəricisi olan Ümumi Daxili Məhsulun və onun komponentlərinin hesablanması metodikasının təkmilləşdirilməsi prosesində istifadə oluna bilər.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını Dövlət Statistika Komitəsinin illik məcmuələri, İqtisadiyyat Nazirliyinin statistik və normativ-metodiki materialları, internet resursları, həmçinin müxtəlif elmi araşdırmalar təşkil etmişdir**.**

Tədqiqat prosesində statistikanın ümumi metodlarından, o cümlədən, mütləq, nisbi və orta kəmiyyətlər, dianmika sıralarının təhlili, reqressiya-korrelyasiya və s. metodlarından istifadə edilmişdir**.**

**Dissertasiya işinin strukturu** giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşdə 7 cədvəl və 5 qrafik verilmişdir. Ədəbiyyat siyahısında 35 adda ədəbiyyat adı vardır. Dissertasiya işinin ümumi həcmi 74 səhifədən ibarətdir.

Dissertasiyanın birinci fəsli "Azərbaycan Respublikasında Milli Hesablar Sisteminin tətbiqinin müasir vəziyyəti və inkişaf perspektivləri" adlanır. Bu fəsildə Milli Hesablarr Sisteminin makrostatistik model kimi rolu müəyyənləşdirilmiş və Azərbaycanda Milli Hesablarr Sisteminin tətbiqinin müasir vəziyəti , onun inkişaf perspektivləri və makroiqtisadi təhlildə istifadə istiqamətləri tədqiq edilmişdir.

Dissertasiyanın ikinci fəsli "Azərbaycan Respublikasında MHS-in regional göstəricilərinin hesablanması və təhlili metodları" adlanır. Bu fəsildə MHS-in regional göstəricilərinin hesablanmasının əsas prinsipləri, metodları və xüsusiyyətləri geniş tədqiq edilmiş, RÜDM-un hesablanmasında istifadə olunan statistik vahidlərin rolu və əhəmiyyəti araşdırılmış və MHS-in istehsal hesabının əsas komponentləri və RÜDM-ə onların təsirinin qiymətləndirilməsi həyata keçirilmişdir.

Dissertasiyanın "Regionların ÜDM-un statistik təhlili və proqnozlaşdırıması" adlı üçüncü fəslində Azərbaycanda ÜDM-un dinamikasının statistik təhlili aparılmış və regionların ÜDM-un artırılmasının əsas istiqamətləri və prqnozlaşdırıması geniş tədqiq edilmişdir. Tədqiqatın sonunda nəticə və təkliflər formalaşdırılmış, istifadə olunan ədəbiyyat siyahısı verilmişdir.

# *Fəsil I. Azərbaycan Respublikasında Milli Hesablar Sisteminin (MHS) tətbiqinin müasir vəziyyəti və inkişaf perspektivləri*

## *§1.1 MHS iqtisadiyyatın makrostatistik modelidir*

Milli Hesablar Sistemi makrosəviyyədə iqtisadi proseslərin ən ümumi tərəflərini və nəticələrini təhlil və təsvir etmək üçün istifadə edilən göstəricilərin və təsnifatların qarşılıqlı əlaqədə olan sistemidir. MHS–i iqtisadiyyatın makrostatikstik modelidir. MHS – nin qurulmasında məqsəd təkrar istehsal prosesinin bütün mərhələlərində iqtisadiyyatın inkişafının ümumiləşdirici göstəricilərini və bu göstəricilərin arasındakı qarşılıqlı əlaqələri formalaşdırmaqdan ibarətdir.

Milli Hesablar Sistemi bazar iqtisadiyyatı şəraitində makroiqtisadi prosesləri özündə əks etdirən bir-biri ilə qarşılıqlı əlaqəli olan və 150-dən çox ölkədə tətbiq edilən ikitərəfli göstəricilər sistemidir. Bu sistemin metodoloji əsasları tədiyyə balansının və sahələrarası balansın metodoloji əsasları ilə sıx bağlıdır.

Azərbaycanda bu sistemin tətbiqi beynəlxalq statistika təşkilatlarının Milli Hesablar Sisteminin problemlərinə dair hazırladıqları metodiki təlimatlar əsasında aparılır və hesablamaların nəticələri vaxtaşırı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Valyuta Fondu və statistika sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatlar tərəfindən ekspertiza olunur.

Hesablardan institutsional vahidlərin, o cümlədən ölkənin rezidenti olan müəssisələrin, idarələrin, təşkilatların və ev təsərrüfatlarının həyata keçirdiyi iqtisadi əməliyyatların qeydiyyatı üçün istifadə edilir. Burada həmçinin, ölkənin rezidentləri ilə qeyri-rezidentlər arasındakı əməliyyatlar da əks olunur. Milli Hesablar Sistemi – balans qaydasında, qarşılıqlı əlaqədə olan cədvəllər dəstidir. Milli hesabların qurulması metodu mühasibat hesabında olduğu kimidir. Hər bir hesab ikitərəfli cədvəl şəklində balansdır və hər bir əməliyyat iki dəfə - ehtiyatlarda (resurs) və istifadədə əks etdirilir. Hesabın hər bir tərəfində əməliyyatların yekunu növbəti

hesabın resurs maddəsi kimi çıxış edən balanslaşdırıcı maddənin köməyi ilə balanslaşdırılır [4].

Hesabın balanslaşdırıcı maddəsi onun sağ və sol tərəfinin balanslılığını (bərabərliyini) təmin edir və resursla onun istifadəsi arasındakı fərq kimi hesablanır. Başqa sözlə, əvvəlki hesabın "İstifadə" bölməsində əks etdirilən balanslaşdırıcı maddə sonrakı hesabın "Resurs" bölməsinin ilk göstəricisidir. Bununla Milli Hesablar Sisteminin qurulmasına və hesabların özü arasındakı əlaqəyə nail olunur. Deməli, MHS – nin qurulmasının əsas prinsipləri – ikili yazılış (qeydiyyat), bütün iqtisadi əməliyyatları əhatə etmək və onun struktur ünsürləri arasındakı qarşılıqlı əlaqəni təmin etmək prinsipləridir.

MHS-də əsasən aşağıdakı anlayışlardan istifadə olunur.

- *Mal (əmtəə) – adətən istehsal xərcini ödəyən qiymətlə bazarda satmaq üçün nəzərdə tutulan maldır;*
- *Xidmətlər – məhsul şəklində təzahür etməyən, lakin müəyyən şəxsi və ictimai tələbatları ödəyən fəaliyətin nəticəsidir;*
- *Qeyri-bazar xidmətləri – dövlət idarələrinin və ictimai təşkilatların cari istehlakına aid edilən xidmətlər;*
- *Transfertlər – gəlirlərin və əmanətlərin yenidən bölgüsü məqsədilə həyata keçirilən gəlirlərin həm pul , həm də natural formada birtərəfli, əvəzsiz verilməsidir (köçürülməsidir).*

MHS – də daxili və milli iqtisadiyyat anlayışlarından istifadə edilir və bunlara müvafiq olaraq Ümumi Daxili Məhsul və Ümumi Milli Məhsul göstəriciləri hesablanır. Bu kateqoriyaları fərqləndirmək üçün aşağıdakı anlayışlardan istifadə edilir:

- *Iqtisadi ərazi*
- *Rezident*
- *İqtisadi maraq mərkəzi.*

İqtisadi ərazi dedikdə istehsal amillərinin sərbəst yerdəyişməsi baş verən ərazi başa düşülür. Ölkənin iqtisadi ərazisinə həmçinin aşağıdakılar da aid edilir.

- *Hava məkanı, beynəlxalq sularda ölkənin ərazi suları;*
- *Xaricdə "ərazi anklavı" yəni ölkənin hökümət idarələrinin diplomatik,hərbi, elmi və yaxud digər məqsədlər üçün digər ölkələrdə istifadə etdiyi ərazilər;*
- *Ölkənin öz sərhəddindən kənarda fəaliyyət göstərən müəssisələr, "sərbəst zonaları". Onların fiziki yerləşdiyi ərazi fəaliyyət göstərdikləri ölkənin iqtisadi ərazisinə aid edilir [4].*

Ölkənin iqtisadi ərazisinə başqa ölkənin, yaxud beynəlxalq təşkilatların ərazi anklavı daxil edilmir.

Milli Hesablar Sisteminin qurulmasında əsas məqsəd iqtisadiyyatın quruluşu, iqtisadi proseslərin müxtəlif tərəfləri haqqında ən mühüm informasiyanı əldə etməkdir. Bunun üçün MHS – də müxtəlif təsnifatlardan istifadə edilir. Bunlara aiddir:

1. *İqtisadiyyatın sektorları və sahələri üzrə institutsional vahidlərin təsnifatlaşdırılması;*
2. *İqtisadi əməliyyatların təsnifatlaşdırılması;*
3. *Aktiv və passivlərin təsnifatlaşdırılması;*
4. *Mal və xidmətlərin təsnifatlaşdırılması;*
5. *Təyinatına görə dövlət idarəetmə orqanlarının xərclərinin təsnifatlaşdırılması;*
6. *Vergi və subsidiyaların təsnifatlaşdırılması*

Milli Hesablar Sistemində iqtisadi əməliyyatların təsnifatlaşdırılması mühüm yerlərdən birini tutur. MHS – də bütün iqtisadi əməliyyatlar aşağıdakı qruplara ayrılır:

1. *Mal və xidmətlərlə bağlı əməliyyatlar;*

2. *Gəlirlərlə əməliyyatlar;*
3. *Maliyyə vasitələri ilə bağlı əməliyyatlar;*
4. *Fövqəladə hadisələr nəticəsində aktivlərin dəyişməsini xarakterizə edən sair əməliyyatlar. Onu da qeyd edək ki, bu əməliyyatlar "Aktivlərin sair dəyişməsi hesabına" qeyd edilir.*

Əsas təsnifatlaşdırmalardan biri mal və xidmətlərin əsas qruplar üzrə təsnifatlaşdırılmasıdır. Bu mal və xidmətlərin beynəlxalq təsnifatına uyğun olaraq həyata keçirilir.

Milli Hesablar Sistemində cari və kapital vergilər, istehsal və idxala vergilər, gəlir və mülkiyyətə vergilər bir-birindən fərqləndirilir.

MHS – də istehsala və idxala vergilər dövlət idarəetmə orqanlarının ilkin gəlirləri, gəlir və mülkiyyətə vergilər yenidən vergi ödəmələri kimi izah olunur. İstehsala və idxala vergilər öz növbəsində iki qrupa – məhsullara vergilərə və istehsala sair vergilərə bölünür. Ümumi buraxılışın qiymətləndirilməsi baxımından bu fərqləndirmə vacibdir. Məhsullara vergilər (əlavə dəyər və idxala vergilərdən başqa) istehsalçı qiyməti üzrə əlavə dəyərin tərkibinə daxil edilir, lakin əsas qiymətlərlə qiymətləndirmədə isə əlavə dəyərin tərkibinə daxil edilmir.

Əvvəllər Milli Hesablar sistemi Milli Gəlirin statistikası bazasında yaranmışdır. Bununla müxtəlif metodlarla Milli Gəlirin qiymətləndirilən göstəricilərinin vahid sistemə inteqrasiyası həyata keçirilmişdir. Bu inteqrasiya Milli Gəlirin müxtəlif metodlarla hesablanmasının əsasənda duran qaydaların uzlaşdırılması və harmonizasiyası demək idi. Növbəti mərhələdə MHS – nin inkişafı və təkmilləşdirilməsi iqtisadi proseslərin müxtəlif aspektlərini xarakterizə edən makroiqtisadi informasiyanın müxtəlif bölmələrinin , sahələrarası əlaqələr , xarici iqtisadi əlaqələr, mili sərvət, maliyyə vasitləri ilə əməliyyatlar göstəricilərinin ümumi sistemə inteqrasiya və sistemin əsas göstəriciləri ilə harmonizasiya istiqamətində olmuşdur[4]. MHS – nin bu cür quruluşu onun analitik imkanlarını əhəmiyyətli şəkildə artırır və ayrı – ayrı makroiqtisadi dəyişənlər arasındakı əlaqələri

müəyyənləşdirməyə imkan verir ki , bu da iqtisadiyyatdakı dəyişiklikləri şərtləndirən amilləri aşkar etmək üçün vacibdir.

MHS – nin müasir xüsusiyəti ondan ibarətdir ki, o yalnız bütövlükdə iqtisadiyyatın deyil , həm də onun mühüm struktur bölmələrinin  və institutsional sektorların vəziyyətini və inkişafını səciyyələndirməyə və struktur bölmələrin arasındakı qarşılıqlı əlaqələri aşkar etməyə imkan verir.

Milli Hesablar Sisteminin analitik imkanlara malik olması müasir dövrdə statistik təhlilin  konseptual əsası kimi onun əhəmiyyətini daha da artırır.

Milli Hesablar Sisteminin mühüm xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, o yalnız ən mühüm makoiqtisadi göstəricilər sistemini özündə əks etdirmir, həm də sosial – iqtisadi statistikanın bütün aspektlərininin əlaqələndirilməsi vasitəsidir.

Bu sistemin bütün dünyada geniş yayılmasının əsas səbəblərindən biri onun beynəlxalq iqtisadi dil formasında çıxış etməsidir. Milli Hesablar Sistemində olan makroiqtisadi informasiya axınından daha çox dövlət idarəetmə orqanları iqtisadi siyasətin, iqtisadi artımın stimullaşdırılması, vergi sisteminin təkmilləşdiriməsi , xarici investisiyaların cəlb edilməsi , həyat səviyyəsinin yüksəldilməsi tədbirlərinin işlənib hazırlanması məsələləri üzrə qərarlar qəbul edərkən istifadə edirlər. Bu konteksdə dövlət büdcəsinin formalaşdırılması üçün Ümumi Daxili Məhsul haqqındakı məlumatlardan istifadə edilməsini xüsusi qeyd etmək olar. Dövlət büdcəsi kəsrinin Ümumi daxili Məhsula nisbətinə fiskal siyasətin səmərəlilik göstəricisi kimi baxılır.

Məlumdur ki, bazar iqtisadiyyatında müxtəlif iqtisadi əməliyyatlar yerinə yetirilir: müəssisələr xammal və materiallar alırlar, müxtəlif məhsullar istehsal edirlər, fəhlə və qulluqçular əmək haqqı, dövlət büdcəsinə vergi ödəyirlər, banklardan borc pul götürür, sərbəst və cəlb edilmiş resursları fiziki kapitala investisiya qoyurlar və s. Müəssisələrdən başqa iqtisadi proseslərdə digər təsərrüfat subyektləri: maliyyə idarələri (banklar, investisiya fondları, sığorta kompaniyaları), dövlət idarəetmə orqanları, ev təsərrüfatları, müxtəlif qeyri-kommersiya təşkilatları (həmkarlar, siyasi, dini təşkilatlar və s.) iştirak edirlər. Bu təsərrüfat subyektləri də əmtəə və xidmətlər,

pullar, kreditlər, aksiyalar və digər maliyyə alətləri ilə müxtəlif əməliyyatlar yerinə yetirirlər. Yeni dəyərin yaradılması prosesində təsərrüfat subyektləri bir-biri ilə qarşılıqlı əlaqədə və təsirdə olurlar. Buna görə də təsərrüfat subyektləri və onların yerinə yetirdikləri əməliyyatları, onların aktiv və passivləri haqqında informasiyaları müəyyən qaydada təsnifatlaşdırmaq, sistemləşdirmək zərurəti yaranır. Bu sistemləşdirmə xüsusi qaydalar və prosedurаların köməyi ilə MHS -də yerinə yetirilir.

MHS-nin qurulması nəticəsində hesabat dövründə ölkənin fəaliyyətini xarakterizə edən makroiqtisadi göstəricilər qurulur. MHS əsasında bu göstəricilərin hesablanılması zamanı maddi və qeyri-maddi istehsal arasında fərq qoyulmur, ona görə də burada bütün əmtəə və xidmətlər nəzərə alınır. Ev təsərrüfatının fərdi son istehlakı üçün ev və məişət xidmətlərinin istehsalı MHS-də əks olunan istehsaldan çıxılır. Milli hesablarda aşağıdakı ev və məişət xidmətləri əks olunmur:

- *ev təsərrüfatlarının öhdəsində olan mənzilin yığışdırılması və saxlanması;*
- *uzunmüddət istifadə olunan məişət əşyalarının təmizlənməsi, xidməti və təmiri;*
- *qidanın hazırlanması və verilməsi;*
- *uşaqların tərbiyəsi və təhsili;*
- *xəstələrə, əlillərə və qocalara qulluq;*
- *ev təsərrüfatı üzvlərinin və onların əmlakının daşınması[3].*

Müasir milli hesablar sisteminin mühüm xüsusiyyəti onun ümumi əhatəlilik xarakterdə olmasıdır. Bu o deməkdir ki, milli hesablar sistemi iqtisadi proseslərin bütün aspektlərinin (istehsal, gəlirlərin bölgüsü və təkrar bölgüsü, istehlak və əmanət, investisiyanın maliyyələşdirilməsi, maliyyə vasitələri ilə əməliyyat, xarici iqtisadi əlaqələr, milli sərvətin formalaşdırılması) qarşılıqlı əlaqədə təsvirini təmin edir. Ümumiləşdirilmiş şəkildə milli hesablar sisteminə bütün təsərrüfat subyektləri (institusional vahidlər), bütün iqtisadi əməliyyatlar (mal və xidmətlərlə, gəlir və maliyyə vasitələri ilə), təsərrüfat subyektlərinin bütün aktiv və öhdəlikləri haqqında informasiya daxildir. Eyni zamanda bu sistemdə fövqaladə xarakterli hadisələr (təbii fəlakət, texnogen fəlakət, təbii ehtiyatların tükənməsi) nəticəsində aktiv və öhdəliklərin dəyişməsi haqqında məlumatlar da nəzərdə tutulur.

Makroiqtisadi səviyyədə iqtisadi fəaliyyəti əks etdirən bir sıra mühüm göstəricilər (məsələn, ümumi daxili məhsul) iqtisadiyyatın tərkib hissələrini əks etdirən məlumatlara əsasən hesablanır. Lakin belə göstəricilərin tərkib hissələr üzrə hesablanması milli hesabların qurulmasının əsas məqsədi deyildir. Sistem verilmiş dövr ərzində baş verən iqtisadi fəaliyyətin müxtəlif növlərinə aid dövrün əvvəlinə və axırına aktiv və passivlərin dəyərini qeydə alan balans cədvəlləri ilə birlikdə tərtib edilmiş qarşılıqlı əlaqədə olan hesablardan ibarətdir. Hər bir hesab konkret fəaliyyət növü (milli gəlirin istehsalı, yaradılması, bölgüsü və təkrar bölgüsü) ilə əlaqədardır.

Statistik məlumatların obyektivliyini, dəqiqliyini və dürüstlüyünü təmin etməyin mühüm şərti onların hesablanmasının statistik metodologiyasının təkmilləşdirilməsidir. Uzun müddət ölkədə mövcud olan statistika metodlogiyası dünya praktikasında qəbul ediləndən ciddi fərqlənirdi. Elə buna görə də müqayisə edilən göstəricilər dairəsi çox məhdud idi, bu da bizim sosial – iqtisadi inkişafımızı qabaqcıl ölkələr ilə müqayisə edərək obyektiv nəticə çıxarmağı xeyli çətinləşdirirdi.

Göstəricilər sisteminin beynəlxalq praktikada qəbul edilən standartlara və yanaşmalara uyğunlaşdırılması zəruridir ki, müstəqim beynəlxalq müqayisələr aparmaq imkanı yaransın. Söhbət makroiqtisadi hesablamalarda Milli Hesablar Sisteminin  geniş tətbiq olunmasından  gedir. Bu zaman bəzi alimlərin xalq təsərrüfatı balanslarından imtina etmək fikri ilə razılaşmaq olmaz.  Kapitalist ölkələrinin məşhur iqtisadiçıları təsdiq edirlər ki, xalq təsərrüfatı balansları analitik məqsədlər üçün çox vacibdir. Bu gün inkişaf etmiş ölkələrin statistikasına basqa cür yanaşmaq lazımdır: faydalı nə varsa ölkə statistikasında tətbiq olunmalıdır. Bu ilk növbədə seçmə müşahidələrinin keçirilməsi təcrübəsinə Milli hesablar sistmenin qurulmasına , ümumi daxili məhsulun və ümumi milli məhsulun hesablanması metodogiyasına, əhalinin gəlirlərinin indeksləşdirilməsinə və s. aiddir [3].

Müasir cəmiyyətdə rəsmi statistika xidməti dövlət idarəetməsinin mühüm vasitələrindən biri kimi çıxış edir və onun fəaliyyəti ölkədə sosial-iqtisadi proseslər haqqında adekvat informasiyanın əldə edilməsinə istiqamətlənir. Son dövrlərdə Azərbaycanın bütöv uçot və statistika sistemi bazar münasibətlərinə keçidlə əlaqədar

olaraq komoleks dəyişikliyə məruz qalır.  Bütün bu qeyd edilənlər birbaşa beynəlxalq müqayisəni həyata keçirməyə imkan verən standartların ölkənin uçot və statistika təcrübəsində tətbiqini zəruri etmişdir. Bu istiqamətdə aparılan önəmli işlərdən biri makroiqtisadi hesablamalarda geniş tətbiq edilən və geniş analitik imkanlara malik olan Milli hesablar Sisteminin qurulmasıdır.

Azərbaycan Respublikasında MHS-nin tətbiqinə 1994 cü ildən başlandı. Belə ki, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra uçot və statistik işlərinin beynəlxalq tövsiyyələrə uyğun qurulmasına xüsus əhəmiyyət verdi. Bu məqsədlə  “ Uçot və Statistika işlərinin beynəlxalq standartlara uyğun qurulmasına dair” 11 avqust 1992-ci il tarixli xüsusi fərman imzalandı.

Azərbaycan Respublikası DSK statistika metodologiyasının və təcrübəsinin təkmilləşdirilməsi məsələlərində başqa dövlətlərin baş statistika idarələri, Beynəlxalq statistika təşkilatları və bu məsələlərlə məşğul olan digər təşkilatlar ilə əməkdaşlığı genişləndirdi, eyni zamanda ilkin mühasibat və statistika hesablamalarını bazar iqtisadiyyatının tələblərinə uyğun təşkil etməyə başladı.

Beləlkilə, MHS beynəlxalq miqyasda razılaşdırılmış konsepsiyalar, təriflər, təsnifatlar və uçot qaydalarına uyğun qurulmuş balans cədvəlləri və siyahıların cəmindən ibarət, məntiqi ardıcıllığa malik və birləşdirici makoiqtisadi hesabların cəmidir. Bu sistem geniş miqyasda iqtisadi təhlil aparmaq, qərarlar qəbul etmək və iqtisadi siyasət aparmaq üçün uçot yaratmağa imkan verir. MHS müxtəlif səviyyələrin tərkib hissəsində (iqtisadi agent və ya təshihat vahidi, belə vahidlər qrupu, iqtisadiyyat sahələri, şöbələr və s.) və ya bütün iqtisadiyyat üzrə bütövlükdə fəaliyyətdə ola bilər. Bu sistem ənənəvi olaraq Milli hesablar sistemi adlansa da ondan daha aşağı səviyyyəli bölmə və iqtisadiyyat sahələri üçün də istifadə etmək olar. İqtisadiyyatın fəaliyyətdə olmasını dərk etmək və qiymətləndirmək üçün, habelə iqtisadiyyatın müxtəlif hissələri arasında olan qarşılıqlı iqtisadi əlaqələri müşahidə və təhlil etmək üçün belə tərkib hissələri haqqında hərtərəfli məlumatların olması vacibdir.

## *§1.2. Azərbaycan Respublikasında MHS-in tətbiqinin müasir vəziyyəti, onun inkişaf perspektivləri və makroiqtisadi təhlildə istifadə istiqamətləri*

Milli hesablar sistemi bazar iqtisadiyyatı şəraitində makroiqtisadi prosesləri özündə əks etdirən bir-biri ilə qarşılıqlı əlaqəli olan və 150-dən çox ölkədə tətbiq edilən ikitərəfli göstəricilər sistemidir.

MHS – iqtisadiyyatda ümumi məcmu istehsalı ölçmək üçün, bir növ mühasibat hesabatı sistemi rolunu oynayır. Onun əsas vəzifəsi milli məhsul və milli gəlirin yaranması və istifadəsi prosesinin kompleks təhlili və informasiya təminatıdır. Ümumi şəkildə MHS mühasibat hesabları formasında ikiqat qeyd prinsipi üzrə doldurulan cədvəllərdir. BMT-nin müasir MHS-nin standart hesablarının sayı 600-ə yaxındır.

Azərbaycanda bu sistemin tətbiqi beynəlxalq statistika təşkilatlarının Milli hesablar sisteminin problemlərinə dair hazırladıqları metodiki təlimatlar əsasında aparılır və hesablamaların nəticələri vaxtaşırı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı , Beynəlxalq Valyuta Fondu və statistika sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatlar tərəfindən ekspertiza olunur.

Statistika elminin hərtərəfli öyrənilməsi sosial və iqtisadi həyatda baş verə biləcək dəyişikliklərin dərk edilməsində xüsusi rol oynayır. Bu istiqamətdə zəruri komponentlərdən biri də onun vəzifələri və təşkili prinsipləri hesab olunmalıdır. Müasir dövrdə statistikanın xeyli sayda vəzifələri vardır ki, bunlardan əsas olanı-respublikamızdakı sosial-iqtisadi hadisələrin hərtərəfli işıqlandırılmasıdır. Bu hadisələrin dərk edilməsində ən qüdrətli vasitə olan statistikanın müasir şəraitdə əhəmiyyəti daha da artmışdır. Belə şəraitdə regional və ölkə səviyyəsində yeni göstər icilər sisteminin yaradılması zərurəti ortaya çıxdı. Bütün bunlar beynəlxalq uçot və statistika təcrübəsində qəbul edilmiş, bazarın tələblərini ödəyə bilən Milli Hesablar Sisteminə keçidi zərurətə çevirdi.

1994-cü il 18 fevral tarixli Prezidentin Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının “Statistika haqqında” Qanunu Milli Məclisdə təsdiq edilmişdir. Dövri olaraq həmin qanuna dəyişikliklərin aparılması nəzərdə tutulmuş və həyata keçirilmişdir. 1998-ci iI 20 avqust tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “1998-2002-ci illərdə dövlət statistika sistemində islahatların aparılmasına dair" II Dövlət Proqramı təsdiq edilmişdir. Dövlət Proqramında statistikanın müasir göstəricilər sisteminin, onların hesablanması metodologiyasının bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dəyişdirilməsinin başa çatdırılması, statistika məlumatlarının obyektivliyinin, operativliyinin və dolğunluğunun təmin edilməsi və yerli icra hakimiyyəti orqanlarının və digər informasiya istehlakçılarının ölkənin, rayonların (şəhərlərin) və təsərrüfat subyektlərinin sosial-iqtisadi vəziyyəti haqqında obyektiv statistik informasiyaya olan tələbatının ödənilməsi nəzərdə tutulur. Dövlət Proqramının statistika müşahidəsi metodlarının təkmilləşdirilməsi bölməsində seçmə müşahidəsinin yeni növlərinin (çoxfazalı, çoxməqsədli) metodologiyasının işlənib hazırlanması, müşahidə məlumatlarının bütövlükdə ölkəyə şamil edilməsi probleminin həll edilməsi nəzərdə tutulmuşdur. 1998-2002-ci illərdə sahələrarası balansların Milli Hesablar Sisteminin sxemi üzrə işlənilməsinə, riyazi statistika metodları və makroiqtisadi göstəricilər sistemi bazasında Azərbaycanın və regionların sosial-iqtisadi inkişafının kompleks təhlili metodologiyasının təkmilləşdirilməsinə mühüm əhəmiyyət verilmişdir. Dövlət Proqramında 1993-cil ilin MHS-nə keçidin 1998-2000-ci illərdə başa çatdırılması nəzərdə tutulmuş və yerinə yetirilmişdir [5].

Hazırkı mərhələdə rəsmi statistika Azərbaycanda əhəmiyyətli sosial-iqtisadi inkişaf dəyişiklikləri, inzibati islahatlar, büdcə proseslərinin islahatları, maliyyə hesabatlarının beynəlxalq standartlara keçidi şəraitində inkişaf edir ki, bu da rəsmi statistika fəaliyyətində cəmiyyətin həyatındakı dəyişikliklərə tez (sürətlə) cavab verən, çevik statistik məlumatlarla təminat sisteminin formalaşmasına prinsipcə yeni yanaşmaların axtarılması və həyata keçirilməsi vəzifələrini müəyyənləşdirir. 1992-ci ildən başlayaraq, dövlət statistika orqanlarının fəaliyyəti keyfiyyətcə yeni

inkişaf və istiqamət mərhələsinə qədəm qoymuşdur. Dövlət Statistika Komitəsi tərəfindən statistika praktikasında istifadə olunan qayda və standartlar tədricən beynəlxalq və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılır və bu zaman ölkədə aparılan islahatlara xüsusi diqqət yetirilir. 1992-2003-cü illər ərzində istər dövlət statistika hesabatları, istərsə də onların tərtib edilməsinə dair təlimatlar beynəlxalq standartlara uyğun və ölkənin dövlət dilində hazırlanmışdır.

MHS mərkəzində ümumi daxili məhsul (ÜDM) durur. İkinci, makroiqtisadi göstərici ümumi milli məhsuldur (ÜMM). Onların hər ikisi iqtisadiyyatın hər iki sferasında maddi istehsal və xidmətlərdə fəaliyyətin nəticələrini əks etdirir. Hər ikisi, bir il (kvartal, ay) müddətinə əmtəə və xidmət istehsalında bütün son məhsulun həcmini dəyər kimi müəyyən edir. Bu göstəricilər cari, qüvvədə olan qiymətlərdə və sabit qiymətlərlə (hər hansı baza ilinə nisbətdə və ya xarici sabit valyutaya nisbətdə) hesablanır.

Ümumi Daxili Məhsul (ÜDM) milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir, istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi vahidlərin-rezidentlərin istehsal fəaliyyətinin son nəticəsini xaraкterizə edir və bu vahidlərin son istehlaк üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərin həcmi ilə ölçülür. ÜDM iqtisadi vahidlərin-rezidentlərin məhsul və xidmətlərin istehsalçıları arasında bölüşdürüldüyü ilкin gəlirlərin, yəni muzdlu işçilərin əməк haqqının,istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə, gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər. Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlaкını, əsas кapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

ÜDM nələri əhatə etmir: Baxmayaraq ki, ÜDM material və qeyri-material sferasının hər ikisini əhatə edir, bu göstərciyə nəzərə alınması çətin və mümkün olmayan bir çox əməliyyatlar və xidmətlər düşmür. Məsələn:

- *Öz ev təsərrüfatındakı evdar qadınların işi;*

- *Hazır məhsul şəklinə salınmayan, özü üçün işləyən amillərin işləri (məsələn, kitab, nümunə, məqalə və s.);*
- *Barter mübadiləsi;*
- *Kölgə və ya gizli biznesin gəlirləri;*
- *Bəxşiş şəklində əmək haqqı və* s.;

ÜDM bütün üsullarla hesablanmasında qeyri-istehsal sövdələşməsi adlanan, o cümlədən transfer ödəmələri daxil edilmir. Bu ödəmələrin həcmi, bir qayda olaraq kifayət qədər böyükdür, lakin onlar sadəcə ÜDM yenidən bölgüsüdür.

Transfer ödəmələrinə aşağıdakılar daxildir:

- *Dövlət transfer ödəmələri, məsələn, sosial-sığorta üzrə ödənişlər, işsizliyə görə müavinətlər, təqaüdlər, dövlət borcuna görə faiz ödəmələri;*
- *Xüsusi transfer ödəmələri, məsələn, xüsusi fondlardan birdəfəlik ödəmələr, xüsusi şəxslərə və təşkilatlara təqaüdlər;*

ÜDM-ə həmçinin təmiz maliyyə əməliyyatları daxil deyil. Məsələn, qiymətli kağızların alış və satışı. Belə ki, onlar cari istehsalı artırmırlar.

ÜMM və ÜDM arasındakı fərqlər aşağıdakılardır: ÜDM ərazi əlamətinə görə hesablanır. Bu müəssisələrin milli mənsubiyyəti nəzərə alınmadan ölkə ərazisində yerləşən maddi və xidmətlər sferaları məhsullarının məcmu dəyərini göstərir. ÜMM isə bu, milli müəssisələrin yerləşməsindən asılı olmayaraq (öz ölkəsində və ya xaricdə) milli iqtsadiyyatın hər iki sferasında bütün məhsul və xidmətlərin məcmu dəyəridir. Beləliklə, ÜMM ÜDM – dan faktor gəlirlərinə görə fərqlənir. Adətən ÜMM hesablamaq üçün ÜDM göstəricisinə xaricdə olan müəssisələrin və fiziki şəxslərin mənfəət və gəliri ilə ölkədə olan xarici işçilərin və xarici investorların mənfəət və gəlirlərinin fərqi əlavə edilir. Bu fərq stabil və liberal iqtisadiyyatlı ölkələrdə böyük olmur. Qərbin aparıcı ölkələri üçün bu fərq ÜDM – un 1%-dən çox olmur.

Respublikamızda ÜDM və ÜMM ilk dəfə 1998-ci ildən etibarən hesablanmağa başlayıb. İstər ÜDM , istərsə də ÜMM hesablanarkən il ərzində istehsal edilmiş əmtəə və xidmətlər bir dəfə nəzərə alınır, yəni onlar *son* məhsul kimi qəbul

edilir və bura aralıq məhsullar daxil edilmir. Axı *aralıq* məhsullar bir neçə dəfə istehsal prosesinə daxil olur və təkrar hesablanır. ÜDM və ÜMM hesablanarkən təkrar hesablanmaya yol verməmək üçün hər aralıq emal mərhələsindən sonra yaradılmış əlavə dəyər nəzərə alınır. Son məhsul istehlakçıların təkrar satış üçün deyil, öz istifadələri üçün aldıqları əmtəə və xidmətlərin dəyərinə deyilir. Aralıq məhsul isə gələcəkdə emal olunacaq və yaxud gələcəkdə bir neçə dəfə təkrar satılacaq əmtəə və xidmətlərin dəyərinə deyilir.

ÜDM əsasən 3 metodla hesablanır: *məsrəflər üzrə; gəlirlər üzrə; əlavə edilmiş dəyər üzrə.*

**I.ÜDM-un məsrəflər üzrə hesablanması:**

1. *əhalinin istehlak xərcləri - (C),*
2. *ümumi xüsusi investisiyalar - (I),*
3. *əmtəə və xidmətlərin dövlət alışı - (G),*
4. *xalis ixracat (idxal və ixracın fərqi) - ($X_n$).*

*Deməli,*

$$\textbf{ÜDM} = \mathbf{C + I + G + X_n}$$

**II.ÜDM-un gəlirlər üzrə hesablanması:**

1. *əmək haqqı - (W),*
2. *faiz – (r),*
3. *renta – (R),*
4. *mənfəət – (m).*

Bu gəlirlərin cəminə amortizasiya ayırmaları (d), dolayı vergilər (T) və mülkiyyətdən vergi ($T_1$) də əlavə edilir. Onda

$$\textbf{ÜDM} = \mathbf{W + r + R + m + d + T + T_1}$$

Ölkədə fəaliyyət göstərən daxili və xarici vətəndaşların gəlirləri ÜDM-a daxil edilir.

**III.ÜDM-un əlavə dəyər üzrə hesablanması:**

Bu metod istehsal metodu adlanır və ÜDM-un bir il ərzində istehsal olunmuş son məhsulun hər bir mərhələsində əlavə edilmiş dəyərlərin məcmusudur. Əlavə

edilmiş dəyər firmaların istehsal etdiyi məhsulun dəyəri ilə başqa firmaların xammalın, materialın, yəni aralıq məhsulların alınmasına sərf etdiyi məbləğ arasındakı fərqdir. Bu halda ÜDM-un kəmiyyəti bütün istehsalçı firmaların əlavə etdikıəri dəyərlərin cəminə bərabərdir.

Makroiqtisadi göstəricilər əksər hallarda MHS-nə aid olan göstəricilərlə eyni məzmun daşıyır. Lakin makroiqtisadiyyat təhlil prosesində həmin göstəricilərinin bir qismini ümumiləşdirə bilər: əgər ölkədə ÜDM hesablanirsa, bu zaman aralıq istehlak müəyyən edilmir, çünki həmin istehlak yeni yaranan dəyərdə qiymətlə ifadə olunur. Əgər aralıq istehlak da nəzərə alınardısa, onda ÜDM-un qiyməti şişirilmiş olardı. Makroiqtisadiyyat etibarilə ÜDM il ərzində ölkədə istehsal edilən son məhsul və xidmətlərin bazar dəyərindən ibarətdir. Burada son məhsul dedikdə ÜDM-un o hissələri nəzərdə tutulur ki, həmin hissə cari istehsaldan kənarlaşdırılır və istehlakın ödənilməsi üçün istifadə edilir. Bəzi hallarda bu göstəricilər altında xalis ixrac və fondların amortizasiyası da əks etdirilir. Ümumilikdə son məhsul cəmiyyətin ehtiyacları üçün, habelə şəxsi istehlakın ödənilməsi baxımından istifadə edilən məhsul və ya xidmətdir. Bundan fərqli olaraq aralıq istehlak ÜDM-dan çıxılır.

Makroiqtisadi göstərici olan qiymətin ümumi səviyyəsi üzrə əldə olunan qiymət indeksi ölkədə yeni yaranan dəyərin real artımını müəyyən etməyə imkan verir. Başqa sözlə, qiymət indeksi vasitəsilə ÜDM-un artımında inflyasiyanın təsiri aradan qaldırılır. Əgər qiymət indeksi cari il üçün müəyyən edilirsə, bu zaman cari ilin qiymət indeksi baza ilindəki qiymətə bölünməklə əldə olunur və **"%"** formasında ifadə olunur.

Makroiqtisadi baxımdan iqtisadiyyatın mövcud vəziyyətinin müəəyyənləşdirilməsi üçün müvafiq göstəricilərin qiymətləndirilməsi həyata keçirilir. Bu baxımdan ümumi iqtisadiyyatda baş verən dəyişikliyi ÜDM özündə əks etdirir. Başqa sözlə, ÜDM-un tərkib elementlərində baş verən bu və ya digər dəyişiklik son nəticədə onun kəmiyyətcə dəyişməsinə səbəb olur. Qəbul olunmuş qaydaya əsasən ÜDM-un strukturunda istehlak, investisiya, dövlət xərcləri, xalis ixrac kimi

fərqləndirilən elementlər daxil edilir. Həmin göstəricilər arasında olan münasibətlər istənilən halda ÜDM-un ümumi həcminə bərabər olmalıdır.

Ölkədə milli hesablar sisteminin işlənməsi üçün əsasən Avropa İttifaqında istifadə olunan və " Birləşmiş iqtisadi hesabların Avropa sistemi " kimi məşhur olan BMT MHS variantından istifadə edilir. Bu variantdan istifadə etməklə , 1990 – 1998-ci illər üçün respublika səviyyəsində milli hesablar yaradılmışdır. Ümumi daxili məhsul göstəricisinin milli hesablar sistemində əsas makroiqtisadi göstərici hesab edildiyini nəzərə alaraq, BMT – nin mövcud metodologiyasına uyğun olaraq Dövlət Statistika Komitəsi cari və müqayisəli qiymətlərlə sahə və bölmələr üzrə ÜDM-un illik, rüblük və aylıq hesablamalarını həyata keçirir. 1993 – cü ildən başlayaraq, müqayisəli qiymətlərlə ÜDM-un aylıq qiymətləndirilməsi Dövlət Statistika Komitəsi tərəfindən təhlil edilir və müxtəlif nəşrlərdə dərc etdirilir. Bu işlər Beynəlxalq Valyuta Fondunun (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) və Dünya Bankının metodoloji köməyi və məsləhətləri ilə həyata keçirilmişdir.

Milli hesablar sistemi istehsal, ilkin və təkrar bölgü və son istifadə proseslərini bir-biri ilə qarşılıqlı əlaqəsi olan ayrı-ayrı hesablarda (sahələr və institusional bölmələr üzrə) qruplaşdırır.

Toplu MHS-ə aşağıdakı hesablar daxildir:

- *Məhsul və xidmətlər hesabı*
- *İstehsal hesabı*
- *İlkin gəlirlərin yaranması hesabı*
- *İlkin gəlirlərin bölüşdürülməsi hesabı*
- *Gəlirlərin təkrar bölüşdürülməsi hesabı*
- *Sərəncamda qalan gəlirlərin istifadəsi hesabı*
- *Kapitalla əməliyyatlar hesabı.*

Milli hesablar sistemində funksiyaları və maliyyələşmə mənbələri eyni olan iqtisadi vahidlər aşağıdakı sektorlar (bölmələr) üzrə qruplaşdırılır:

- *Qeyri-maliyyə korporasiyaları sektoru*

- *Maliyyə korporasiyaları sektoru*
- *Dövlət idarəetməsi sektoru*
- *Ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları sektoru*
- *Ev təsərrüfatları sektoru.*

Bundan əlavə MHS-də bu sektorların (bölmələrin) xarici ölkə rezidentləri ilə əlaqəsini əks etdirən "Qalan dünya" sektoru və eyni adlı hesab mövcuddur. Bu sektor (hesab) qeyri-rezident vahidlərin ölkə rezidentləri ilə həyata keçirdikləri iqtisadi əməliyyatların nəticələrini özündə birləşdirir.

Bütövlükdə MHS-lərin hesabları 3 sinifə ayrılır:

*I sinif hesabları (konsolid hesablar)* - iqtisadiyyatı bütövlükdə əhatə edir və əsas makroiqtisadi nisbətləri xarakterizə edir (buraya ÜDM-nin aqreqasiya olunmuş hesabları aiddir).

*II sinif hesabları* - I sinif hesablarının ayrı-ayrı məhsul və xidmətlərin istehsalı, ehtiyatları və istifadəsi üzrə bölgüsünü xarakterizə edir.

*III sinif hesabları* - I sinif hesablarının iqtisadiyyatın ayrı-ayrı sektorlarının gəlir və xərclərinin nisbətləri kəsimində bölgüsünü və kapital məsrəflərinin maliyyələşmə mənbələrini xarakterizə edir.

Ən yüksək səviyyədə aqreqasiya olunmuş MHS 4 balans cədvəli kimi təsvir oluna bilər: A – məcmu daxili məhsul; B – milli gəlir və onun bölgüsü; V – kapital məsrəflərinin maliyyələşdirilməsi; F - xarici əməliyyatlar.

## *Fəsil II. Azərbaycan Respublikasında MHS-in regional göstəricilərinin hesablanması və təhlili metodları*

### *§2.1. MHS-in regional göstəricilərinin hesablanmasının əsas prinsipləri, metodları və xüsusiyyətləri*

İqtisadiyyatın bütövlükdə makro səviyyədə fəaliyyətinin nəticəsi göstəriciləri makroiqtisadi göstəricilər adlanır. Belə ki, iqtisadiyyatda baş verən bütün prosesləri və nisbətləri xarakterizə etmək üçün Milli hesablar sistemində makroiqtisadi göstəricilərdən istifadə edilir. Həmin göstəricilər bəzən MHS-nin mərkəzi göstəriciləri də adlanır.

Makroiqtisadi göstəricilərdən ən əsasları aşağıdakılardır:

1. *Ümumi daxili məhsul ÜDM;*
2. *Ümumi milli gəlir ÜMG;*
3. *Sərancamda olan ümumi milli gəlir SÜMG;*
4. *Son istehlak Sİ;*
5. *Ümumi yığım ÜY;*
6. *Xarici ticarət qalığı XTQ;*
7. *Milli qənaət (artım) MQA;*
8. *Xalis kreditləşdirmə XK;*
9. *Milli sərvət MS [3].*

MHS-nin mərkəzi göstəricisi ÜDM-dur. Bəzi xarici ölkələrin statistikasında bir qədər əvvəlki dövrlərdə makroiqtisadi göstərici kimi ümumi milli məhsul (ÜMM) göstəricisindən istifadə olunurdu. Bu göstəricilərin hər ikisi (ÜDM və ÜMM) iqtisadiyyatın maddi istehsal və xidmətlər sahəsində fəaliyyətinin nəticələrini əks etdirir. Onların hər ikisi konkret dövr ərzində (ay, rüb, il) ölkədə (iqtisadiyyatda) istehsal edilmiş son məhsulun, xidmətlərin cari (qüvvədə olan) və sabit qiymətlərlə dəyərinin cəmini göstərir.

ÜDM – la ÜMM – un fərqi aşağıdakılardan ibarətdir:

1. *ÜDM ərazi əlaməti üzrə hesblanır. Bu göstərici mənsubiyyətindən asılı olmayaraq konkret ölkənin ərazisində yerləşən maddi istehsal sferası və xidmət sferası müəssisələrinin məhsullarının dəyərlərinin cəmidir;*
2. *ÜMM milli müəssisələrin harada yerləşməsindən (öz ölkəsində və ya onun sərhədlərindən kənarda) asılı olmayaraq milli iqtisadiyyatın hər iki sferasında istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcminin dəyərinin cəmidir.*

Beləliklə, ÜMM ÜDM-dan həmin ölkənin sərhədlərindən kənarda istifadə etdiyi resurslarından götürdüyü amil gəlirlərinin məbləğindən xaricilərin bu ölkədən apardıqları eyni cür gəlirlərin məbləğini çıxdıqdan sonra qalan məbləğ qədər fərqlənir. Xatırladaq ki, amil gəlirləri dedikdə muzdlu işçilərin gəliri, renta gəliri,ssudalar üçün faizlər və müəssisələrin (firmaların) mənfəəti başa düşülür. Bu gəlirə konkret ölkənin sərhədlərindən xaricdə mülkiyyəti olan və işçilərinə əmək haqqı verməklə firmaların həyata keçirdiyi kapital qoyuluşları nəticəsində əldə etdikləri və öz ölkəsinə keçirdiyi mənfəət daxildir. Adətən ÜMM hesablamaq üçün ÜDM göstəricisinin üzərinə aşağıdakıların fərqini əlavə edirlər:

1. *Konkret ölkənin müəssisələri və fiziki şəxsləri tərəfindən xaricdə əldə etdikləri mənfəətlə gəlirin fərqi;*
2. *Başqa ölkənin investorları və xarici işçilərin bu ölkədə əldə etdikləri mənfəət və gəlirlərin fərqi.*

Dünyanın aparıcı ölkələrində bu fərq çox da böyük olmur (təqribən ÜDM – un 1%-ə qədər). Azərbaycanda ÜMM-un hesablanmasına 1988-ci ildən, ÜDM-un hesablanmasına isə bir qədər gec (təqribən 1992-ci ildən) keçilmişdir. Bu keçid məcmu ictimai mənsulu  (MİM) və milli gəliri (MG) yenidən hesablamaqla həyata keçirilirdi. Xatırladaq ki, keçmiş Sovet statistikasında ÜMM mühüm makroiqtisadi göstərici kimi maddi istehsal sferasında istehsal olunan əmtəələrin və xidmətlərin dəyərinin cəmini əks etdirirdi. Milli gəlir göstəricisi də maddi istehsal sferası bazasında hesablanırdı. ÜMM-u və ÜDM-u hesablayarkən qarşıya qoyulan əsas şərt

ondan ibarətdir ki, il ərzində istehsal olunan əmtəələr və xidmətlər yalnız bir dəfə uçota alınsın (daha doğrusu, bu göstəriciləri hesablayarkən bir neçə dəfə alınıb satıla bilən aralıq məhsullar uçota alınmasın və yalnız son məhsul uçota alınsın). Məsələn, kənd təsərrüfatında istehsal olunan buğda son məhsula (çörəyə) çevrilənədək dörd emal mərhələsindən (buğdanın yığılması, döyülməsi, çeşidlənməsi, elevatorda təmizlənmə, qurudulma və saxlanma, dəyirmanda üyüdülmə və çörəyin bişirilməsi) keçir. Birinci mərhələdə yaranan dəyər emalın sonrakı mərhələlərində istehsal olunan məhsulun dəyərinə (istehsal xərclərinə) də daxil edilir. Lakin hər bir emal mərhələsində yaranan real dəyər əmək haqqını, amortizasiyanı və mənfəəti əhatə edir. Deməli, ÜDM-u və ÜMM-u hesablayarkən təkrar uçotu aradan qaldırmaq üçün emalın hər bir mərhələsində yaranan dəyəri cəmləmək lazımdır. Bu isə son məhsulun dəyərinə bərabərdir. Son məhsul dedikdə alıcı tərəfindən son istehlak üçün (yenidən satmaq üçün yox) alınan əmtəələr və xidmətlərin dəyəri başa düşülür. Son istehlakçıya çatanadək bir neçə dəfə alınıb satılan və ya emal edilən əmtəələr və xidmətlər aralıq məhsulu adlanır. Buraxılmış və istehlak olunmuş məhsulların dəyərləri arasındakı fərq əlavə edilmiş dəyər adlanır.

İqtisadi ədəbiyyatların çoxunda və tərcübədə «əlavə dəyər» kimi işlədilən əlavə edilmiş dəyər (ƏED) konkret müəssisənin konkret məhsul istehsalı prosesində yaratdığı dəyərdir. ƏED konkret müəssisədə xərclənən əmək haqqı, amortizasiya və mənfəəti əhatə edir. Buna görə də yaradılmasında bu müəssisənin iştirak etmədiyi satın alınmış xammal və materialların dəyəri bu müəssisədə istehsal olunmuş məhsul kimi əlavə edilmiş dəyərə daxil edilmir. Başqa sözlə desək, əlavə edilmiş dəyər amortizasiyanı daxil etməklə müəssisənin ümumi məhsulundan aralıq istehlakı çıxmaqla tapılır. Keçmiş Sovet statistikasında bu göstərici şərti xalis məhsul adlanırdı. ƏED-ə aid olan bu kəmiyyətlərin cəmi təkrar uçota yol vermədən hesablanmış ÜDM – u verir.

MHS – də əlavə edilmiş dəyərin tərkibinə amortizasiya, əmək haqqı, korporasiyaların və korporasiyalanmış müəssisələrin mənfəəti, onların aldıqları renta, ssuda kapitalı üçün faizlər, habelə «Xalis vergilər» və ya «Xalis ixracat» adlı ünsürlər

daxil edilir. Xalis vergilərə konkret əmtəənin və xidmətin istehsalına və idxalına dövlət subsidiyalarını çıxmaqla vergilər aid edilir. Xalis ixracat dedikdə isə ixrac edilmiş əmtəə və xidmətlərin dəyərindən idxalın dəyərini çıxdıqdan sonra alınan fərq başa düşülür.

MHS-də hesabların yekununu və ÜDM hesablayarkən xalis vergilər və xalis ixracat ayrıca sətirdə qeydə alınır.

Xarici ticarəti də uçota almaqla ÜDM təkrar istehsal tsiklinin hər bir mərhələsinə uyğun olaraq istehsal (məsrəflər), bölgü (gəlirlər) və son istifadə (istehlak) üsulları ilə hesablanıla bilər. ÜDM istehsal üsulu ilə hesablanarkən məsələyə müxtəlif baxımdan yanaşmaq olar:

***a)*** *Bazar qiymətlərində ÜDM daxili iqtisadiyyatın əsas qiymətləri ilə hesablanmış ümumi buraxılışdan (ÜB) aralıq istehlakı (Aİ) çıxıb, əlavə dəyər vergisini (ƏDV) və idxala xalis vergilərin (İXV) məbləğini cəmləməklə hesablanır:*

$$\textbf{ÜDM} = \sum \textbf{ÜB} - \sum \textbf{Aİ} + \sum \textbf{ƏDB} + \sum \textbf{İXV}$$

***b)*** *Bazar qiymətlərində ÜDM bütün iqtisadiyyat sahələrinin əlavə edilmiş dəyərlərinin cəminə bərabərdir (yəni ƏDV-siz məhsula və idxala xalis vergilər daxil edilməklə)*

$$\textbf{ÜDM} = \sum \textbf{ÜƏD}$$

*Belə halda sahənin ÜƏD – si ümumi buraxılışla aralıq istehlakının fərqinə bərabərdir:*

$$\textbf{ÜƏD} = \textbf{ÜB} - \textbf{Aİ}$$

***c)*** *Bazar qiymətlərində ÜDM iqtisadiyyat sektorları üzrə bazar qiymətlərində ÜƏD – in cəminə bərabərdir:*

$$\boldsymbol{ÜDM = \sum ÜƏD}$$

Bu metodla ÜDM-un hesablanması hər bir sahənin (sektorun) payını, iqtisadiyyatın inkişafının xarakterini və sahəvi qurluşunu əks etdirməyə imkan verir. Beləliklə, istehsal mərhələsində ÜDM istehsalın mənbəyini əks etdirən göstəricidir. Məhsul qiymətləndirilərkən istehlakçıların qiymətindən istifadə olunduğu halda, ÜDM-u müəyyən etmək üçün bütün istehsalçı vahidlərin-rezidentlərin ümumi əlavə edilmiş dəyərlərinin cəminin üzərinə idxal vergisini cəmləyib, məhsula subsidiyaları çıxmaq lazımdır.

ÜDM-u gəlirlərə (yəni, bölgü üsulu ilə) görə də hesablamaq olar. Bu üsulla hesablanan ÜDM iqtisadi vahidlər-rezidentlər arasında bölüşdürülən gəlirlərin məbləğini əks etdirir. ÜDM bölgü üsulu ilə hesablamaq üçün muzdlu işçilərin əməyinin ödənilməsini (ƏÖ), istehsala və idxala xalis vergiləri (İXV), ümumi mənfəəti (ÜM) və ümumi qarışıq gəlirlərin (mülkiyyətdən və sahibkarlıqdan) məbləğini (ÜQG) cəmləmək lazımdır:

$$\boldsymbol{ÜDM = ƏÖ + İXV + ÜM + ÜQG}$$

Bu yolla hesablanmış ÜDM gəlirinin tərkibi və quruluşunu, istehsal amilləri (əsas kapital, işçi qüvvəsi) məsrəflərini, ümumi qarışıq gəlirlərin onun istehsalçıları arasında neçə bölüşdürülməsini öyrənməyə imkan verir [1].

Gəlirlər üzrə hesablanmış ÜDM ilkin, yəni ev təsərrüfatlarının, müəssisə və dövlət idarələrinin hələ bölüşdürülməmiş gəlirlərini əks etdirir. Bu gəlirləri əməyin ödənişinə (muzdlu işçilərin əmək haqqı, sərbəst işlərin gəlirləri, fərdi ailəvi kooperativ və yoldaşlıq müəssisələrinin gəlirləri), ümumi mənfəətə (renta, ssuda və bank faizləri, sahibkarlıq mənfəəti, amortizasiya ayırmaları, müxtəlif cür qarışıq gəlirlər) və xalis vergilərə ayırmaq olar.

Son istifadə üsulu ilə hesablanan ÜDM son istehlaka (Sİ) ixrac və idxal saldosunu (İx - İd) uçota almaqla, ümumi yığımın (Üy) cəmini göstərir.

$$\textbf{\textit{ÜDM = Sİ + Üy + (İx - İd)}}$$

Bu göstərici son istehlakçıların tələblərinin ödənilməsində və ölkənin milli sərvətinin artmasında istifadə olunan ÜDM-un rolunu əks etdirir [3].

MHS-də ÜDM-un son istehlakı fərdi və dövlət istehlakına, habelə ixrac-idxal saldosuna bölünür.

Beynəlxalq statistikanın tövsiyyə etdiyi ÜDM göstəricisi bir qədər də təkmilləşdirilməlidir. Çünki, bu göstərici hər iki sferanı (maddi istehsal və qeyri-maddi istehsal) əhatə etsə də uçotu çətin və ya heç mümkün olmayan bir çox əməliyyatlar buraya daxil olmur. Evdar qadınların öz ev təsərrüfatındakı işi, alimlərin hazır kitab, broşura və s. şəkildə çap olmamış («özü üçün») işləri, barter mübadiləsi, kölgə biznesin gəliri, xırda «şirinlik» formasında ödənişlər və s. belə əməliyyatlara aiddir.

ÜDM-un hesablanması üsullarının heç biri qeyri istehsal xarakterli sövdələşmələri (xüsusilə transfert ödənişləri) əhatə etmir. Belə ödənişlərin həcmi kifayət qədər böyük olmaqla yanaşı, ÜDM-un yenidən bölüşdürülməsində nəzərə alınır. Transfert ödənişlərinə aşağıdakı ödənişlər aiddir:

1. *Dövlət transfert ödənişləri (sosial sığorta üzrə ödənişlər, işsizliyə görə yardım, təqaüd, pensiya, dövlət borcları üzrə faizlərin ödənilməsi və s.);*
2. *Fərdi transfert ödənişləri (fərdi fondlardan birdəfəlik ödənişlər, fərdi şəxslərin verdiyi təqaüd, qiymətli kağızların alqı-satqısı və s.). Cari istehsalı artırmadığına görə xalis maliyyə əməliyyatları (məsələn, qiymətli kağızların alqı-satqısı) ÜDM-a daxil edilmir.*

İllik istehsalın ümumi həcminin ölçüsü olan ÜDM ciddi bir qüsura malikdir: o istehsalın həcmini illik amiortizasiya ayırmalarının məbləği (əsas kapitalın istehlakı) qədər artırır. Nəzərə almaq lazımdır ki, cəmiyyətin rifahı yalnız istehsalın həcminin

artırılması yolu ilə təmin olunur. Xüsusi fondlarda yığılan amortizasiya ayırmaları isə əhalinin həyat səviyyəsini yüksəltmir. Bunları nəzərə alaraq ÜMM və ÜDM həcmini illik amortizasiya ayırmalarının məbləği (əsas kapitalın istehlaka) qədər azaltmaqla, başqa makroiqtisadi göstəriciləri – xalis milli məhsul (XMM) və xalis daxili məhsul (XDM) göstəricilərini hesablamaq olar. Bu göstəricilərin köməyi ilə konkret ölkənin istehsal və istehlak etdiyi əmtəə və xidmətlərin illik ümumi həcmini ölçmək mümkündür. Başqa sözlə, bu göstərici XMM-un istehsalını təmin etmək üçün torpaq, işçi qüvvəsi, kapital və sahibkarlıq fəlaiyyəti üçün iqtisadi resursları iş verənlərin gəlirlərinin həcmini əks etdirir.

XMM-da iqtisadi resursların rolunu əks etdirməyən yeganə komponent dolayı (qeyri-müstəqim) vergilərdir. Odur ki, əmək haqqının, renta ödənişlərinin və mənfəətin ümumi həcmi göstəricilərini müəyyən etmək üçün XMM-dan dolayı (qeyri-müstəqim) xərcləri çıxmaq lazımdır. Bu yolla alınmış göstərici milli gəlir adlanır.

Xalis daxili məhsulu hesablamaq üçün ÜDM-dan əsas kapitalın istehlakını (amortizasiya ayırmalarını) çıxmaq lazımdır. Əsas kapitalın istehlakı yeni yaranmış dəyər deyil, əvvəlcə yaranmış əsas fondların dəyərinin istehsal prosesində iştirakı ilə əlaqədar istehlakıdır. Beləliklə, nəzəri cəhətcə əlavə edilmiş dəyər xalis nəticəyə aid olan anlayışdır. Bu həm də daxili məhsula aiddir. Nəzəri cəhətdən daxili məhsul da xalis nəticə ilə əlaqədar olan anlayışdır. Lakin ÜDM müxtəlif məqsədlər üçün istifadə edilə bilər.

Sərəncamda olan ümumi milli gəlir də MHS-nin aqreqat göstəricilərindən biridir. SÜMG bütün institusional vahidlərin-rezidentlərin sərəncamda olan gəlirlərinin, yəni institusional vahidlərin son istehlak və əmanətlər üçün malik olduqları gəlirlərinin cəmidir. SÜMG hesablamaq üçün UMG-dən qeyri-rezident vahidlər tətərfindən ödənilən cari transfertləri (vergilərdən başqa istehsala və idxala subsidiyaları çıxmaqla) çixib, rezident vahidlərin dünyanın qalan dövlətlərindən aldıqları müvafiq tranfertləri cəmləmək lazımdır.

SÜMG-dən əsas kapitalın istehlakını çıxandan sonra sərəncamda qalan xalis milli gəlir (SXMG) alınır.

Xarıcı ticarət qalığı (saldosu) ÜDM-un son istifadəsinin əsas ünsürü hesab edilir. Bu göstərici ixracın həcmindən idxalın həcmini çıxmaqla hesablanır. İxracin həcmi carı dövrün qiymətləri əsasında öz ölkəsinin valyutası və ya ABŞ dolları ilə hesablanır. Idxalın ümumi həcmi müxtəlif ölkələrdə idxal olunan, məhsul, əmtəə və göstərilən xidmətlərin dəyərinin ümumi yekununa bərabərdir. İdxalın yekunu carı dövrün qiymətləri əsasında hər ölkənin öz valyutası, yaxud da ABŞ dolları ilə müəyyənləşdirilir. Əgər, idxalın ümumi həcmi xarıcı ticarət tərəf müqabil təşkilatlarının milli valyutası ilə ifadə olunarsa, bu zaman idxalın həcmi dövlətin milli bankının müəyyən etdiyi valyuta məzənnəsi əsasında milli valyutaya və ya ABŞ dollarına çevrilməklə hesablanır.

MHS –nin ən mühüm göstəricilərindən biri də milli qənaətdir (yığımdır). Bu göstərici sətəncamda olan milli gəlirdən son istehlakın həcmini çıxmaqla hesbalana bilər.

Xarici kreditləşmə (borc alma) dedikdə bütövlükdə iqtisadiyyat səviyyəsində hər hansı bir ölkənin başqa bir ölkənin sərəncamına müvəqqəti verdiyi və ya həmin ölkədən öz ölkəsinin sərəncamına müvəqqəti götürdüyü resursların həcmi nəzərdə tutulur.

Milli sərvət insan əməyinin nəticəsi olan toplanmış maddi nemətlərin, torpaq və təbii ehtiyatların, qızıl və xarici valyuta, qeyri-maddi aktivlərin məcmusudur.

MHS-nin mühüm makroiqtisadi göstəriciləri arasındakı qarşılıqlı əlaqəni aşağıdakı kimi yazmaq olar:

1. *Ümumi daxili məhsul* **ÜDM**
2. *Əsas kapitalın istehlakı* **ƏKİ**
3. *Xalis daxili məhsul* **XDM=UDM-ƏKİ**
4. *Xaricdən alınan ilkin gəlirlərin qalığı (saldosu)* **XİGQ**
5. *Ümumi milli gəlir* **UMG=ÜDM+XİSQ**
6. *Xalis milli gəlir* **XMG=ÜMS-ƏKİ**

*7. Xaricdən alınan cari tranfertlərin qalığı (saldosu)* **XACTQ**

***8.** Sərəncamda olan ümumi milli gəlir* **SUMG=ÜMG+XACTQ**

***9.** Son istehlak* **Sİ**

***10.**Milli qənaət* **MQ=SÜMG-Sİ**

***11.**Xaricdən alınan kapital tranfertlərinin qalığı (saldosu)* **XAKTQ**

***12.**İnvestistiyanın maliyyələşmə mənbələri* **İMM=MQ+XAKTQ**

***13.**Milli yığım (ümumi daxili məhsulun ünsürü kimi)* **MY**

***14.**Qeyri-istehsal, qeyri-maddi, qeyrimaliyyə aktivlərinin əldə edilməsi* **QİMA**

***15.**Xalis kreditləşmə* **XK=İMM-MY-QİMA**

1993-cü ildə BMT MHS-də ÜDM-un hesablanması zamanı əmtəə və xidmətlər axınının ayrı-ayrı ünsürlərinin, habelə əmtəə və xidmətlərin ümumi buraxılışının qiymətləndirilməsinin üsulları dəqiqləşdirildi [3].

Bu göstəricinin ənənəvi istehsalçının qiymətləri ilə qiymətləndirilməsi ilə yanaşı, həm də onun əsas qiymətlərlə qiymətləndirilməsi tövsiyyə olundu. Yeni MHS-nin müəlliflərinin fikrincə ümumi buraxılışın və əlavə edilmiş dəyərin əsas qiymətlərlə qiymətləndirilməsi bir sıra üstünlüklərə malikdir. Elə buna görə də 1993-ci ildə tətbiq olunan MHS-də sahələrin məhsulunu əsas qiymətlərlə, bu mümkün olmadıqda isə istehsalçının qiymətləri ilə qiymətləndirmək tövsiyyə olundu. Nəzərə almaq lazımdır ki, yuxarıda göstərilən axının əsas qiymətlərlə qiymətləndirilməsinin nəticəsi olaraq bütün sahələrin ümumi əlavə edilmiş dəyərinin məbləği son istehlakçının qiyməti ilə ÜDM- a bərabər olmur.

Bu əlaqəni aşağıdakı kimi göstərmək olar:

$$ÜDM=\sum ÜƏED + \sum Vj - \sum Sj$$

Burada:

***ÜƏED*** – istehlakçının qiymətiylə ümumi əlavə edilmiş dəyəri;

***Vj*** – məhsula vergiləri;

***Sj*** – məhsula subsidiyaları göstərir; ÜDM istehsalçıların qiyməti ilə qiymətləndirilərsə, yuxarıdakı bərabərlik aşağıdakı şəkil alar:

$$ÜDM = \sum ÜƏEDj + \sum ƏDVj + \sum Vj - \sum Sj$$

Burada:

$\sum ƏDV$ – istehsalçının qiymətiylə əlavə dəyər vergisini göstərir. Əmtəə forması olmayan, lakin satış üçün nəzərdə tutulan məhsullar eyni növ məhsulun bazar qiymətləri ilə, bazar qiymətləri olmadıqda isə maya dəyəri ilə qiymətləndirilir.

Yeni MHS-də belə ehtimal edilir ki, bir çox əmtəə və xidmətlərin axını, habelə aktivlərin (ehtiyatların) dəyər ifadəsiylə göstəricilərinin dəyişməsini aşağıdakı iki tərkib hissəsinə ayırmaq olar:

1. Nəzərdən keçirilən əmtəə və xidmətlər axının və ya aktiv növlərinin qiymətlərinin dəyişməsi;
2. Əmtəə, xidmət və aktivlərin fiziki həcminin dəyişməsi.

Lakin elə dəyər göstəriciləri də var ki, (məsələn, humanitar yardım tipli dəyər formasında olan transfertlər) onları sabit qiymətlərlə ifadə etmək mümkün deyildir.

## *§2.2. RÜDM-un hesablanmasında istifadə olunan statistik vahidlərin rolu və əhəmiyyəti*

Statistik vahidlər - rəsmi statistika üçün ilkin məlumatları təqdim edən, yaxud da statistiklər tərəfindən müşahidələrin aparılması, məlumatların toplanması və təhlili üçün müəyyənləşdirilmiş hüquqi şəxslərdir (onların nümayəndəlik və filiallarıdır) və fiziki şəxslərdir. Statistik vahidlərdən yığılmış zəruri məlumatlar əsasında ölkə və regionlar üzrə ümumiləşdirilmiş və qruplaşdırılmış nəticələri tərtib edirlər, statistik məcmuələr, bülletenlər, icmallar, mətbu buraxılışlar və digər statistik materiallar nəşr edirlər, onları istifadəçilər arasında yayırlar, ictimaiyyətdə maraq doğuran icmal-statistik məlumatları mətbuatda dərc etdirirlər [34].

Başdan-başa siyahıyaalmalarda məlumatların təqdim edilməsi üzrə öhdəlik (vəzifə) müvafiq məcmu çərçivəsində əhatə dairəsinin müəyyən meyarlarına cavab verən bütün statistik vahidlərə şamil edilir.

Azərbaycan Respublikası ərazisində rəsmi statistikanı həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən statistik məlumatları əks etdirən statistik vahidlərin Dövlət reyestri aparılır, orada təsərrüfatçılıq-sahibkarlıq fəaliyyəti göstərən və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növləri ilə məşğul olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətini, əsas və qeyri-əsas fəaliyyətini səciyyələndirən ünvan və statistika göstəriciləri əks etdirilir.

Statistik vahidlərdən alınan məlumat yükünü azaltmaq, onların yığılmasında təkrarçılığa yol verməmək məqsədilə, müvafiq icra hakimiyyəti orqanları topladıqları, işlədikləri və özlərinin məlumat bazalarında yerləşdirdikləri inzibati statistik məlumatlara, məlumatlar registrlərinə və digər fayllara rəsmi statistika materiallarının hazırlanması üçün dövlət statistika orqanlarının girişini zəruri olan səviyyədə, həcmdə və vaxtda təmin edirlər və proqramla müəyyənləşdirilmiş vaxtda və formada məlumatları onlara təqdim edirlər.

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir [34].

Statistik vahidin birbaşa tanınması onun adı, ünvanı və müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin köməyi ilə baş verir.

Dolayısı ilə statistik vahidlərin tanınması bu maddənin ikinci hissəsində qeyd olunan məlumatlardan əlavə, bu vahidlər haqqında digər məlumatlardan istifadə etməklə baş verə bilər. Statistik vahidin dolayı yolla tanınması imkanını müəyyənləşdirərkən, həmin statistik vahidin tanınmasında istifadəsi mümkün olan bütün vasitələr nəzərə alınmalıdır.

Dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatların statistik vahidlər, ailə kəndli və ev təsərrüfatları tərəfindən dövlət statistika orqanlarına elektron sənəd formasında təqdim edilməsində məqsəd statistika orqanları ilə əlaqələrin keyfiyyətinin yaxşılaşdırılması, statistik vahidlərə düşən informasiya yükünün və vaxt itkisinin azaldılması, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə məlumatların təqdim edilmə üsulunun asanlaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılmasına nail olmaqdır.

Statistik hesabat təqdim edən statistik vahidlərin vəzifələri aşağıdakılardır:

1. *elektron sənəd mübadiləsi ilə bağlı Dövlət Statistika Komitəsinin bütün təlimat və qaydalarına əməl etmək, müəyyən olunmuş formada tərtib olunan elektron hesabatları (məlumatları) qanunvericilikdə müəyyən olunmuş müddətdə göndərmək;*
2. *elektron sənədlər mübadiləsinin aparıldığı iş yerinin informasiya təhlükəsizliyini təmin etmək;*
3. *səhv aşkar edilmiş hesabatları yenidən hazırlayıb göndərmək;*
4. *elektron sənəd mübadiləsi üçün istifadə olunan elektron poçt (e-mail) ünvanı dəyişdikdə, 3 gün müddətində qeydiyyatda olduğu yerli statistika orqanına məlumat vermək;*
5. *statistika orqanlarına təqdim edilmiş elektron hesabatları və statistika orqanlarından alınmış bütün elektron sənədləri azı 3 il ərzində saxlamaq;*
6. *elektron sənədlərin mübadiləsindən imtina edildikdə, bu barədə hesabatın (məlumatın) təqdim olunma müddətindən azı 10 gün əvvəl statistika orqanına ərizə vermək;*
7. *avadanlığın texniki nasazlığı və ya digər səbəblərdən hesabatın (məlumatın) elektron formada təqdim olunması müəyyən dövr ərzində mümkün olmadıqda, hesabatın onunla eyni hüquqi qüvvəyə malik kağız formasında təqdim olunmasını təmin etmək.*

Dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatları statistik vahidlər, ailə kəndli və ev təsərrüfatları tərəfindən dövlət statistika orqanlarına elektron sənəd formasında təqdim edilməsində məqsəd statistika orqanları ilə əlaqələrin keyfiyyətinin yaxşılaşdırılması, statistik vahidlərə düşən informasiya yükünün və vaxt itkisinin azaldılması, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə məlumatların təqdim edilmə üsulunun asanlaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılmasına nail olmaqdır.

Statistik vahidin yerli statistika orqanı tərəfindən göndərilmiş bildirişi aldığı an hesabatın qəbul edilmə vaxtı hesab olunur.

Rəsmi statistik məlumatlar başdan-başa və yaxud seçmə müşahidələr yolu ilə toplanır. Bu müşahidələr müntəzəm və dövri statistik hesabatlardan, birdəfəlik uçota almalardan, müxtəlif siyahıyaalmalardan, sorğulardan, müayinələrdən ibarətdir.

Dövlət (region) statistika müşahidələri aparılan zaman, qanunvericilikdə başqa hal nəzərdə tutulmamışdırsa , statistik müşahidələrin növü, metodologiyası, proqramları və obyektləri həmçinin rəsmi statistikanın aparılması üçün bütün mənbələrdən məlumatların alınması, inzibati registrlərdən və ya dövlət statistika orqanlarının məlumatları əsasında aparılan qiymətləndirmələrdən istifadə edilməsi, beynəlxalq təşkilatların və şuranın tövsiyələri nəzərə alınmaqla, dövlət statistika orqanları tərəfindən müəyyən edilir. Istifadə olunacaq mənbənin seçilməsinə dair qərar qəbul edilərkən onun keyfiyyətinə, məlumatların vaxtında təqdim edilməsinə, xərclərə və bununla əlaqədar respondentlərə düşən yükə xüsusi diqqət yetirilir.

İqtisadi siyahıyaalmalar, habelə əhalinin ümumrespublika siyahıyaalınmasının həyata keçirilməsi normativ aktlara uyğun aparılır. Onların yerinə yetirilməsi üçün dövlət statistika orqanlarında işləməyən şəxslər müvafiq icra hakimiyyəti orqanının qərarlarında müəyyən edilmiş şərtlər əsasında cəlb edilirlər.

Azərbaycan Respublikasının ərazisində yerləşən bütün hüquqi şəxslər (onların nümayəndəlik və filialları) və fiziki şəxslər dövlət (region) müşahidələrinin

aparılması üçün lazım olan məlumatları müəyyən edilmiş həcmdə və müddətlərdə haqqı ödənilmədən kağız və ya müvafiq qanunvericiliyə uyğun olaraq məlumatların təqdim edilməsi təsdiq oluna bilən elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim etməyə borcludurlar.

Rəsmi statistika materiallarının istehsalı üçün məlumatların təqdim olunmasına cəlb edilmiş statistik vahidlərin müayinə və siyahıyaalmanın məqsədi, əhatə dairəsi, statistik məlumatların məxfiliyinin təmin edilməsi üçün təminat, həmçinin bu barədə öz səlahiyyət və vəzifələri haqqında məlumat almaq hüququ vardır.

Başdan-başa siyahıyaalmalarda məlumatların təqdim edilməsi üzrə öhdəlik (vəzifə) müvafiq məcmu çərçivəsində əhatə dairəsinin müəyyən meyarlarına cavab verən bütün statistik vahidlərə şamil edilir. Seçmə müayinələrdə bu öhdəlik yalnız seçmə planı əsasında müəyyən edilmiş vahidlərə aid edilir. Seçmə planı müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır və respondentlərin təmsilçiliyinin və onlara düşən yükün azaldılması məqsədinə xidmət edir.

Dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatların elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Azərbaycan Respublikasında statistik məlumatların beynəlxalq müqayisəliliyini təmin etmək üçün beynəlxalq təsnifatlarla uzlaşdırılmış və yerli şəraitə uyğunlaşdırılmış texniki-iqtisadi və kommersiya məlumatlarının statistik təsnifatları (TİKMST) yaradılır və aparılır.

Azərbaycan Respublikası ərazisində məlumatların mübadiləsini aparan bütün hüquqi və fiziki şəxslər mütləq statistik təsnifatlardan (məlumatların kodlaşdırılmasından) istifadə etməlidirlər.

Statistik təsnifatların aparılması, yenilərin yaradılması və köhnələrin ləğv edilməsi qaydası "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikası ərazisində rəsmi statistikanı həyata keçirmək üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən statistik məlumatları əks etdirən statistik

vahidlərin Dövlət registri aparılır, orada təsərrüfatçılıq-sahibkarlıq fəaliyyəti göstərən və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növləri ilə məşğul olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətini, əsas və qeyri-əsas fəaliyyətini səciyyələndirən ünvan və statistika göstəriciləri əks etdirilir.

## *§2.3 MHS-in istehsal hesabının əsas komponentləri və RÜDM-ə onların təsiri*

İqtisadiyyatın vəziyyəti və inkişafı barədə əhatəli məlumatların əldə edilməsi yalnız ölkə iqtisadiyyatı üzrə MHS-in bütün hesabları, həmçinin iqtisadiyyatın sektorlarının "qalan dünya" ilə əməliyyatları barədə məlumatlar mövcud olanda mümkündür. Buna görə də, "qalan dünya" sektoru üçün də hesabların qurulması vacibdir. Milli Hesablar Sistemi istehsal, ilkin və təkrar bölgü və son istifadə proseslərini bir-biri ilə qarşılıqlı əlaqəli olan ayrı-ayrı hesablarda (sahələr və institusional bölmələr üzrə) qruplaşdırır. Hazırda Azərbaycan Respublikasında aşağıdakı hesablar tərtib edilir:

- *Məhsul və xidmətlər hesabı;*
- *İstehsal hesabı;*
- *Gəlirlərin yaranması hesabı;*
- *İlkin gəlirlərin bölüşdürülməsi hesabı;*
- *Gəlirlərin təkrar bölüşdürülməsi hesabı;*
- *Gəlirlərin istifadəsi hesabı;*
- *Kapitalla əməliyyatlar hesabı;*
- *Maliyyə hesabı [3].*

İstehsal hesabı cari hesablar sırasında birinci hesabıdır. MHS-də əsas yerlərdən birini tutur "İstehsal" hesabı bilavasitə istehsalın nəticələrini (məhsul və xidmətlərin buraxılışını) və istehsal zamanı məhsul və xidmətlərin istifadəsini (aralıq istehlakı) əks etdirir. İstehsal hesabı həm iqtisadiyyatın hər bir sektoru və ya sahəsi,

həm də bütövlükdə ölkə iqtisadiyyatı üzrə qurulur. İstehsal hesabının balanslaşdırıcı maddəsi birinci halda - ümumi əlavə dəyər, ikinci halda isə iqtisadiyyatın inkişafını səciyyələndirən göstərici olan ümumi daxil məhsul olacaqdır. Hər iki halda istehsal hesabının ilkin göstəricisi məhsul və xidmətlərin ümumi buraxılışıdır. Istehsal hesabının sxemi aşağıdakı kimidir[34]:

**Cədvəl 1.**

**İstehsal hesabı**

| **İstifadə** | **Ehtiyatlar** |
|---|---|
| **Aralıq istehlak**<br>**Ümumi əlavə edilmiş dəyər (əsas qiymətlərlə)** | **Əsas qiymətlərlə məhsul və xidmətlərin ümumi buraxılışı** |
| **Cəmi** | **Cəmi** |

MHS bir-biri ilə məntiqi qarşılıqlı əlaqədə olan hesablar, balanslar və köməkçi cədvəllər sistemidir. Bu sistem beynəlxalq miqyasda razılaşdırılmış konsepsiya, tərif, konvensiya, təsnifat və uçot qaydalarına uyğun qurulmuşdur. Sistemin əsas məqsədi iqtisadi təhlil aparmaq və iqtisadi siyasət üçün gərək olan iqtisadi göstəricilər sistemini hazırlamaq və onların qarşılıqlı əlaqəsini təmin etməkdir.

Sistem müxtəlif səviyyəli və tərkibli institusional vahidlər və ya vahidlər qrupu üçün tərtib edilə bilər.

Milli hesablar sistemində ilk hesab istehsal hesabıdır. Bu hesab institusional vahidlər, sektorlar (şöbələr) və iqtisadiyyat üzrə bütövlükdə tərtib edilir. İstehsalda yaranan gəlir sonrakı hesablara keçir. Odur ki, istehsal hesabının tərtib olunması üsulu bütün MHS-nə təsir edə bilər.

İstehsal hesabının ünsürləri - məhsul və xidmətlərin ümumi buraxılışı, aralıq istehlak və əsas kapitalın istehlakıdır. İstehsal hesabının balanslaşdırıcı maddəsi əlavə edilmiş dəyərdir. Bu göstərici ümumi və xalis variantlarda, daha

doğrusu, əsas kapitalın istehlakını çıxmamaqla və çıxmaqla aşağıdakı kimi hesablana bilər:

1. *Ümumi əlavə edilmiş dəyər, məhsul və xidmətlərin ümumi buraxılışından aralıq istehlakı çıxmaqla müəyyən edilir.*
2. *Xalis əlavə edilmiş dəyər, məhsul və xidmətlərin ümumi buraxılışından aralıq istehlakı və istehlak olunmuş əsas kapitalın dəyərini çıxmaqla tapılır.*

Lakin təcrübədə əsas kapitalın istehlakını ölçmək müəyyən çətinliklərlə əlaqədar olduğu üçün xalis əlavə edilmiş dəyərdən həmişə istifadə etmək mümkün olmur. Eyni zamanda sistemin sonrakı hesablarında balanslaşdırıcı maddənin hesablanması imkanını da nəzərdə saxlamaq lazımdır. Bu isə öz növbəsində əlavə edilmiş dəyərdən, daha doğrusu istehlak olunmuş əsas kapitalın dəyərinin çıxılması və ya çıxılmamasından asılı olaraq alınan mənfəət və ona bərabər tutulan gəlir, qarışıq gəlir, ilkin gəlirin saldosu və sairdən də asılıdır. Əlavə edilmiş dəyər fərdi istehsalçıların, sahələrin və sektorların Ümumi Daxili Məhsula (ÜDM) töhvəsini əks etdirir. Ümumi əlavə edilmiş dəyər gəlirlərin ilkin bölüşdürülməsi hesabına köçürülür. Nəzərə almaq lazımdır ki, əlavə edilən dəyər burada əməliyyat deyildir[3].

Ümumiyyətlə, hesablarda balanslaşdırıcı maddə iki məqsəd üçün istifadə olunur:

a) *Ehtiyatlarla istifadə arasında bərabərlik yaratmaqla hesabı bağlayır;*
b) *öz-özlüyündə maraqlı konsepsiya olduğu üçün.*

Deməli, istehsal hesabı əsas qiymətlərlə məhsul və xidmətlərin ümumi buraxılışı, onun tərkib ünsürləri ilə yəni aralıq istehlakla və ümumi əlavə edilmiş dəyərlə qarşılıqlı surətdə əlaqələndirən cədvəllər sistemindən ibarətdir.

2005-2013-cü illərdə Azərbaycan Respublikasında istehsal hesabı aşağıdakı kimi olmuşdur. [9.s.23]

**Cədvəl 2.**

**2005-2013-cü illərdə Azərbaycan Respublikası istehsal hesabı (cari qiymətlərlə, milyon manatla)**

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| **Ehtiyatlar** | | | | | |
| **Əsas qiymətlərlə məhsulun və xidmətlərin ümumi buraxılışı** | **20252,3** | **57797,5** | **70361,3** | **75756,6** | **81166,8** |
| **Istifadə** | | | | | |
| **Aralıq istehlak** | **8676,3** | **18209,0** | **21335,3** | **24404,9** | **26862,8** |
| **Ümumi əlavə dəyər (əsas qiymətlər)** | **11576,0** | **39588,5** | **49026,0** | **51351,7** | **54304,0** |

Cədvəldən göründüyü kimi məhsul və xidmətlərin ümumi buraxılışı 2005-ci ilə nisbətən 2013-cü ildə 4 dəfə, ümumi əlavə dəyər isə 4,7 dəfə artmışdır. Məhsul və xidmətlərin ümumi buraxılışında aralıq istehlakın xüsusi çəkisi 2005-ci ildə 42,8 % olduğu halda,2013-cü ildə bu göstərici 33,1 % təşkil etmişdir

Ümumi Buraxılış (ÜB) dedikdə hesabat dövründə istehsal edilmiş məhsulların və xidmətlərin (bütün bazar və qeyri – bazar məhsulları və xidmətlərini daxil etməklə) dəyərlərinin cəmi başa düşülür.

Beynəlxalq iqtisadiyyatda ümumi buraxılış iqtisadi fəaliyyətin nəticəsini qiymətləndirən göstərici hesab edilmir və əlavə dəyəri və başqa göstəriciləri hesablamaq üçün başlanğıc baza rolunu oynayır. Belə vəziyyət ümumiləşdirici göstərici olan ümumi buraxılışa keçmiş əmək məsrəflərinin dəyərini əks etdirən aralıq istehlakın daxil olması ilə əlaqədardır.

Lakin ümumi buraxılışın hesablanmasının dəqiqliyi ÜDM-un və istehsal fəaliyyətinin nəticələrini əks etdirən başqa göstəricilərin dəqiqliyini və tamlığını təmin edən zəruri şərtdir.

Ümumi buraxılışa aşağıdakılar aiddir:

1. *Məhsulların (əmtəələrin) buraxılışı;*
2. *Bazar xidmətlərinin buraxılışı;*
3. *Qeyri-bazar xidmətlərinin buraxılışı.*

Məhsulların buraxılışı istehsal prosesi başa çatdıqda uçota alınır. Lakin ümumi buraxılışın dəyəri adətən il üçün müəyyən edildiyinə görə uçot zamanı məhsullar müxtəlif hazırlıq dərəcəsinə malik olurlar. Buna görə də, hazırlıq dərəcəsinə görə bütün məhsullar üç kateqoriyaya – hazır məhsula, yarım fabrikata və bitməmiş (başa çatdırılmamış) istehsala ayrılır.

Hazırlanması götürülmüş təsərrüfat – rezident vahidi çərçivəsində başa çatmış məhsullar hazır məhsul adlanır. Bir çox hallarda məhsulun hazırlıq dərəcəsi sənədlə rəsmiləşdirilir. Başqa hallarda məhsulun hazırlandığı an onun realizasiyası (kənd təsərrüfatı məhsullarının dövlətə və başqa bazar kanalları ilə satışı, ictimai iaşə məhsulları və s.) ilə eyni vaxta düşür. Bəzən məhsulun hazırlıq anı qeydə alınmır (məsələn, öz ehtiyacları üçün kənd təsərrüfatı məhsulları istehsal edildikdə, əhalinin fərdi mənzil tikintisi zamanı). Belə halda hazırlıq anı texnoloji prosesin qurtardığı an hesab edilir.

Müəyyən hazırlıq dərəcəsinə çatdırılmış və bu müəssisə daxilində yenidən emalı gözlənən məhsullar yarımfabrikat adlanır. Yarımfabrikat adətən sənaye müəssisələrində olur.

Bitməmiş (başa çatdırılmamış) istehsal sənaye, kənd təsərrüfatı və ictimai iaşə müəssisələrində olur. Sənayedə və ictimai iaşədə bitməmiş istehsala bir sex və ya bölmə daxilində emal prosesini başa vurmamış məhsullar daxil edilir. Kənd tsərrüfatında bitməmiş istehsal gələcək ilin məhsulu ilə əlaqədar çəkilən xərclərin, habelə çoxillik bitkilərin təsərrüfatda istifadə edilə biləcəyi dövrədək becərilməsinə çəkilən xərclərin məbləği ilə müəyyən edilir. Heyvandarlıqda bitməmiş istehsal kökəldilməyə qoyulmuş mal-qaranın saxlanılmasına, cavan mal-qaranı təsərrüfatda istifadə edilə biləcək yaşadək saxlanılmasına çəkilən xərclərin məbləğinə görə müəyyən edilir. İstehsal edilmiş, lakin realizə olunmamış məhsul və xidmətlər də

bazara göndərilən məhsullar kimi ümumi buraxılışın həcminə daxil edilir. Məhsul və xidmətlərin aşağıdakı növləri ümumi buraxılışa daxil edilmir:

1. *Pulsuz ev xidmətləri;*
2. *Torpaq rentası (bunlar mülkiyyətdən gəlir kimi nəzərdən keçirilir və istehsal nəticəsi hesab olunmur);*
3. *Sahibkarların özləri tərəfindən mənzildə yerinə yetirilən xidmət və təmir işləri.*

Ümumi buraxılışı hesablayarkən barter (əmtəə və xidmətləri başqa əmtəə və xidmətlərə və ya aktivlər dəyişmə) əsas qiymətlərlə onların satılacağı halda alınacaq ödəniş qiyməti ilə qiymətləndirilir.

Əməyin ödənilməsi üçün istifadə edilən əmtəə və xidmətlər onların satıla biləcəyi qiymətlərlə qiymətləndirilir. Bir müəssisə daxilində başqa müəssisə üçün istehsal edilmiş məhsul və xidmətlər əsas qiymətlərlə (və hər hansı üçüncü tərəfə edilən xid mətlər üçün nəqliyyat xidmətlərinin dəyərini əlavə etməklə) qiymətləndirilir. [3]

Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi ümumi buraxılışa daxil olunmur.

Bitməmiş istehsal qalığının dəyişməsi MHS – də hazır məhsulun ehtiyata qoyulması və oradan götürülməsi kimi nəzərdən keçirilir və həmin vaxta qüvvədə olan əsas qiymətlərlə qiymətləndirilir. Öz ehtiyacları üçün istehsal olunan əmtəə və xidmətlər istehsal olunduğu anda uçota alınır və bazarda satıla biləcək əsas qiymətlərlə qiymətləndirilməlidir. Bu məqsədlə daha əlverişli olan ikinci üsüldan da istifadə etmək olar. Belə olan halda öz ehtiyacları üçün istehsal olunan əmtəə və xidmətlərin dəyəri onlara sərf edilən məsrəflərə bərabər götürülür.

İrəlidə deyildiyi kimi, iqtisadiyyat üzrə ümumi buraxılışın həcmi maddi nemətlər istehsal edən bütün xidmət sahələrinin ümumi buraxılışlarının cəmi kimi hesablanır. Lakin hər bir sahədə ümumi buraxılışın hesablanmasının özünə məxsus xüsusiyyətləri vardır ki, bu da həmin sahələrin texnologiyası və təşkili prinsipləri ilə bilavasitə əlaqədardır.

Sənayenin ümumi buraxılışı sənaye müəssisələrinin, iqtisadiyyatın başqa sahələrinin sənaye bölmələri və habelə ev təsərrüfatlarının sənaye xarakterli fəaliyyət sahələrinin məhsullarını əhatə edir.

Fərdi istehlak üçün istifadəsi nəzərdə tutulan əmtəələr və xidmətlər istehsal olunan vaxtı uçota alınmalıdırlar. Əmtəələr və xidmətlər bazarda satılacaqları halda alıcıya təklif ediləcəkləri əsas qiymətlərlə qiymətləndirilirlər. Onları bu yolla müəyyən etmək üçün eyni növdən olan əmtəələr və xidmətlər bazarda kifayət miqdarda satılmalı və alınmalıdır ki, onlara əsasən etibarlı bazar qiymətlərini hesablamaq mümkün olsun. Etibarlı bazar qiymətləri əldə etmək mümkün olmadığı halda bir qədər qeyri-mükəmməl üsuldan istifadə olunur. Belə halda öz fərdi istehlakı üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri şərti olaraq onların istehsalına çəkilən məsrəflərin dəyərinin cəminə bərabər götürülür. Belə məsrəflərə isə aşağıdakı ünsürlərin dəyərləri daxildir:

1. *Aralıq istehlak;*
2. *Fəhlə və qulluqçulara kompensasiyalar;*
3. *Əsas kapitalın istehlakı;*
4. *İstehsal prosesi dövründə ödənilən bütün növ vergilər (subsidiyaları çıxmaqla).*

Yuxarıda qeyd edildiyi kimi, bir çox əmtəələr və xidmətlər öz istehsalını başa vurduqda uçota alınır. Lakin məhsul vahidinin istehsalı uzun müddətə başa gələrsə onu fasiləsiz istehsal edilən məhsul hesab etməklə bitməmiş və ya başa çatmamış istehsal adlandırırlar. Məsələn, istehsalı aylar və illər tələb edən (gəmi, təyyarə və s.) məhsullar belələrinə aiddir. Belə məhsullar iki və daha çox hesabat dövrünü əhatə etdiyinə görə hər bir dövr ərzində istehsal olunmuş məhsulun dəyəri müəyyən edilməlidir. Əmtəələr və ya xidmətlər yalnız istehlakçılara göndərməyə hazır olduqda hazır məhsul hesab edilir.

Bitməmiş istehsal qalığı isə konkret hesabat dövründə satışa hazır olmur, lakin o müəyyən vaxt ərzində satışa yararlı məhsula çevrilə bilər. Bitməmiş işlərin

(istehsalın) dövrün sonuna qalığı balans yolu ilə müəyyən edilir və bu qalıq həm də gələn dövrün əvvəlinə olan qalığın həcmini göstərir.

MHS-də başa çatmamış işlərin dəyəri istehsalçılarda saxlanılan məhsul ehtiyatlarının komponentlərindən biri kimi nəzərdən keçirilir. Lakin, uzun müddət istifadə edilən istehsalı qismən başa çatmış əmtəələrlə (körpülər, tunellər, bəndlər və s. iri qurğular) əsas kapitalın ümumi əlavə artımı arasındakı sərhəddi dəqiq müəyyən etmək həmişə çətin olur.

İstehsal prosesi uzun müddət (bir neçə ay, rüb, il) davam edən sahələrdə buraxılmış məhsulun dəyəri həmin dövrlərdə çəkilən xərcə mütənasib olaraq hazır məhsulun dəyərinə bölmək yolu ilə müəyyən edilir. Bundan ötəri korporasiya edilmiş firmalarla korporasiya edilməmiş firmaları fərqləndirmək lazımdır. Korporasiyalaşmış müəssisələrdə məhsulun bölüşdürülməsi muzdlu işçilərə verilən əmək haqqlarını da daxil etməklə çəkilmiş real istehsal xərclərinə mütənasib olaraq aparılır. Korporasiya edilməmiş firmalarda buraxılmış hazır məhsulun bölüşdürülməsi aşağıdakı kimi aparılır: əvvəlcə real xərclər (toxuma, yanacağa və s.) baş verdiyi dövrlər üzrə bölüşdürülür. Sonradan buraxılmış hazır məhsulun qalıq dəyəri (yəni satılan qarışıq gəlir) sahibkarın əvəzi ödənilməyən iş saatlarının sayına bölünür. Bundan ötəri müxtəlif dövrlərdə yerinə yetirilmiş işlərin təqribi həcmini hesablamaq kifayətdir.

Hazır məhsulun dəyəri aşağıdakı dəyərləri cəmləməklə müəyyən edilir:

1. *Cari və əsas qiymətlərlə satılmış və ya dəyişdirilmiş hazır məhsulun dəyəri;*
2. *Cari və əsas qiymətlərlə ehtiyata daxil olan hazır məhsulun dəyərindən ehtiyatdan götürülən dəyərin fərqi;*
3. *Cari və əsas qiymətlərlə istehsalçı tərəfindən istehlak edilən hazır məhsulların dəyəri.*

Əgər istehsal edilmiş hazır məhsulun dəyəri yarımfabrikat kimi bölüşdürülürsə bitməmiş istehsal qalığının dəyişməsi də nəzərə alınmalıdır. Əks təqdirdə istehsal olunmuş məhsulun təkrar uçotu baş verə bilər. Bitməmiş istehsalın azalması satışın həcmini də azaldır.

Əgər bütün istehsal prosesi bir hesabat dövrü (məsələn, il) ərzində başa çatarsa buraxılmış məhsulu yuxarıda təsvir olunan qaydada bölməyə ehtiyac qalmır. Lakin hesabat dövrü istehsal prosesinin başa çatmasından tez baş verərsə və ya aralıq mərhələlri (ay, rüb) üzrə hesabat tərtib etmək lazım gələrsə hazır məhsulun dəyərini bitməmiş istehsal kimi bölüşdürmək lazımdır.

Bəzi başqa sahələrdə olduğu kimi, kənd təsərrüfatında da istehsal prosesi başa çatmadan bitməmiş istehsalı qiymətləndirmək lazım gəlir. Belə halda başa çatmamış istehsalın dəyəri əvvəlcədən real çəkilmiş xərclərə görə müəyyən edilir. Şərti qiymətləndirilmiş operativ mənfəətin və onlara bərabər tutulan gəlirlərin dəyəri onun üzərinə əlavə edilir.

Satılmış əmtəələrin dəyəri əmtəənin hansı məqsəd üçün satılmasından asılı olaraq müəyyən edilir. Korporasiya edilməmiş müəssisələrin sahiblərinin öz son istehlakı və götürdükləri muzdlu işçilərə natura şəklində verdikləri əmtəələrin dəyəri cari son istehlak qiyməti ilə qiymətləndirilir. Belə halda ticarət mənfəəti sıfra bərabər olur.

ÜDM-un və ümumi buraxılışın hesablanmasının dəqiqliyi həm də aralıq istehlakın düzgün hesablanmasından asılıdır. BMT-nin tövsiyyə etdiyi sonuncu MHS-də aralıq istehlak müəyyən dövrdə əmtəə və ya xidmətlər istehsal etmək üçün istifadə olunmuş məhsul (əsas fondlar istisna olmaqla) və bazar xidmətlərinin dəyəridir. Bu isə o deməkdir ki, aralıq istehlak cari ildə əmtəə və xidmətlər istehsalının ümumi buraxılışı ilə əlaqədar başqa əmtəə və xidmətlərin istehlakını, daha doğrusu, maddiləşmiş əmək məsərflərini əks etdirən göstəricidir.

Aralıq istehlaka aşağıdakı ünsürlər daxil edilir:

1. *Maddi məsrəflər (məhsullar və maddi xidmətlər);*
2. *Qeyri-maddi xidmətlər;*
3. *Ezamiyyə xərcləri (yol pulu və mehmanxana xidmətinin ödənilməsi);*
4. *Aralıq istehlakın sair ünsürləri.*

Aralıq istehlakın hesablanmasının əsasını maddi məsrəflərin müəyyən edilməsi təşkil edir. Beynəlxalq statistikada və Azərbaycan Respublikasının DSK-də maddi

məsrəflərin müəyyən edilməsi sahəsində müəyyən təcrübə toplanmışdır. MHS-də istifadə olunan aralıq istehlak ilə XTB-dakı maddi istehsal məsrəfləri arasında aşağıdakı fərqlər vardır:

1. *Maddi məsrəflər yalnız maddi istehsal sahələri üzrə hesablandığı halda aralıq istehlak qeyri-istehsal xidmətləri göstərən sahələri də daxil etməklə iqtisadiyyatın bütün sahələri və sektorları üzrə müəyyən edilir.*
2. *Maddi məsrəflər amortizasiya ayırmalarını öz tərkibinə daxil etdiyi halda aralıq istehlak amortizasiyanı əhatə etmir (ÜDM-a daxil olduğuna görə).*

Beləliklə, aralıq istehlak cari ildə ölkə ərazisində başqa məhsul və xidmətləri istehsal etmək üçün istehlak olunan nemətlərin (əsas fondların istehlakından başqa) və bazar xidmətlərinin dəyərlərinin cəmidir.

Pulsuz xidmətlər göstərən büdcə təşkilatlarının aralıq istehlakı müvafiq büdcələrin yerinə yetirilməsinə dair hesabatlara əsasən hesablanır. Buraya aşağıdakı maddələr aiddir: poçt, teleqraf, dəftərxana və təsərrüfat məsrəfləri, avadanlıq, alətlərin, dərman ləvazimatının, sarğı materiallarının, geyimin və s. əldə edilməsi xərcləri.

Aralıq istehlakın ayrı-ayrı komponentlərini müəyyənləşdirərkən qiymətlərin dəyişməsi ilə əlaqədar olaraq müəyyən çətinliklər qarşıya çıxır. Bu, ilk növbədə ehtiyata qoyulmuş əmtəələrə aid edilir. Əmtəələr ehtiyata bir qiymətlə, oradan istehsalata isə başqa qiymətlə daxil ola bilər. Belə vəziyyət müntəzəm oalarq ehtiyatların fasiləsiz inventarizasiya yolu ilə yenidən qiymətləndirilməsini tələb edir. Belə halda aralıq istehlakın bütün ünsürləri onların istehsalatda istehlak olunduqları anda qüvvədə olan amil (faktor) qiymətləri ilə qiymətləndirilir.

## *Fəsil III . Regionların ÜDM-nun statistik təhlili və proqnozlaşdırıması*

### *§3.1 Azərbaycanda ÜDM-un dinamikasının statistik təhlili*

Ümumi Daxili Məhsul (ÜDM) milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir, istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi vahidlərin-rezidentlərin istehsal fəaliyyətinin son nəticəsini xaraкterizə edir və bu vahidlərin son istehlaк üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərin həcmi ilə ölçülür. ÜDM iqtisadi vahidlərin-rezidentlərin məhsul və xidmətlərin istehsalçıları arasında bölüşdürüldüyü ilкin gəlirlərin, yəni muzdlu işçilərin əməк haqqının,istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə, gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər. Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlaкını, əsas кapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

ÜDM nələri əhatə etmir: Baxmayaraq ki, ÜDM material və qeyri-material sferasının hər ikisini əhatə edir, bu göstərciyə nəzərə alınması çətin və mümkün olmayan bir çox əməliyyatlar və xidmətlər düşmür. Məsələn:

- *Öz ev təsərrüfatındakı evdar qadınların işi;*
- *Hazır məhsul şəklinə salınmayan, özü üçün işləyən alimlərin işləri (məsələn, kitab, nümunə, məqalə və s.);*
- *Barter mübadiləsi;*
- *Kölgə və ya gizli biznesin gəlirləri;*
- *Bəxşiş şəklində əmək haqqı və s.;*

ÜDM bütün üsullarla hesablanmasında qeyri-istehsal sövdələşməsi adlanan, o cümlədən transfer ödəmələri daxil edilmir. Bu ödəmələrin həcmi, bir qayda olaraq kifayət qədər böyükdür, lakin onlar sadəcə ÜDM yenidən bölgüsüdür.

Transfer ödəmələrinə aşağıdakılar daxildir:

- *Dövlət transfer ödəmələri, məsələn, sosial-sığorta üzrə ödənişlər, işsizliyə görə müavinətlər, təqaüdlər dövlət borcuna görə faiz ödəmələri;*
- *Xüsusi transfer ödəmələri, məsələn, xüsusi fondlardan birdəfəlik ödəmələr, xüsusi şəxslərə və təşkilatlara təqaüdlər;*

ÜDM-ə həmçinin təmiz maliyyə əməliyyatları daxil deyil. Məsələn, qiymətli kağızların alış və satışı. Belə ki, onlar cari istehsalı artırmırlar.

3-cü cədvəldə 2000-2014-cü illərdə Azərbaycan Respublikasının ümumi daxili məhsulu haqqında məlumatları verilmişdir.

**Cədvəl 3**

**Azərbaycan Respublikasında 2000 – 2014-cü illərdə Ümumi Daxili Məhsul**

| | **Cəmi** | | **Adambaşına** | | **1$= manat** |
|---|---|---|---|---|---|
| | **milyon manatla** | **milyon dollarla** | **manatla** | **dollarla** | |
| **2000** | 4718,1 | 5272,8 | 593,2 | 662,9 | 0,8948 |
| **2001** | 5315,6 | 5707,7 | 661,7 | 710,5 | 0,9313 |
| **2002** | 6062,5 | 6235,9 | 747,5 | 768,9 | 0,9722 |
| **2003** | 7146,5 | 7276,0 | 872,7 | 888,5 | 0,9822 |
| **2004** | 8530,2 | 8680,4 | 1030,4 | 1048,5 | 0,9827 |
| **2005** | 12522,5 | 13238,7 | 1494,3 | 1579,8 | 0,9459 |
| **2006** | 18746,2 | 20983,0 | 2208,2 | 2471,6 | 0,8934 |
| **2007** | 28360,5 | 33050,3 | 3296,6 | 3841,7 | 0,8581 |
| **2008** | 40137,2 | 48852,5 | 4603,7 | 5603,3 | 0,8216 |
| **2009** | 35601,5 | 44297,0 | 4033,2 | 5018,2 | 0,8037 |
| **2010** | 42465,0 | 52909,3 | 4753 | 5922 | 0,8026 |
| **2011** | 52082,0 | 65951,6 | 5752,9 | 7285 | 0,7897 |
| **2012** | 54743,7 | 69683,9 | 5966,1 | 7594,3 | 0,7856 |
| **2013** | 58182,0 | 74164,4 | 6258,3 | 7977,4 | 0,7845 |
| **2014** | 58977,8 | 75188,4 | 6264,1 | 7985,9 | 0,7844 |

3-cü cədvəldən göründüyü kimi 2000-2014-cü illərdə Respublikamızın Ümumi Daxili Məhsulu sürətlə artmışdır. Belə ki, əgər 2000-ci ilə nisbətən 2005-ci ildə ÜDM 2,7 dəfə artmışdırsa, 2005-ci ilə nisbətən 2014-cü ildə artım 1,4 dəfə olmuşdur. 2000-ci ilə nisbətən 2014-cü ildə isə ÜDM ölkə üzrə 12,5 dəfə artmışdır. 2005-2011-ci illərdə Respublikamızdı ÜDM-un kəskin artımı ölkəmizdə neft hasilatının kəskin artması ilə bağlı olmuşdur.

ÜMM və ÜDM arasındakı fərqlər aşağıdakılardır: ÜDM ərazi əlamətinə görə hesablanır. Bu müəssisələrin milli mənsubiyyəti nəzərə alınmadan ölkə ərazisində yerləşən maddi və xidmətlər sferaları məhsullarının məcmu dəyərini göstərir.

ÜMM isə bu milli müəssisələrin yerləşməsindən asılı olmayaraq (öz ölkəsində və ya xaricdə) milli iqtsadiyyatın hər iki sferasında bütün məhsul və xidmətlərin məcmu dəyəridir. Beləliklə, ÜMM ÜDM-dan faktor gəlirlərinə görə fərqlənir. Adətən ÜMM hesablamaq üçün ÜDM göstəricisinə xaricdə olan müəssisələrin və fiziki şəxslərin mənfəət və gəliri ilə ölkədə olan xarici işçilərin və xarici investorların mənfəət və gəlirlərinin fərqi əlavə edilir. Bu fərq stabil və liberal iqtisadiyyatlı ölkələrdə böyük olmur. Qərbin aparıcı ölkələri üçün bu fərq ÜDM-un 1%-dən çox olmur.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında Ümumi Daxili Məhsulda qeyri-dövlət bölməsinin payı, 2005-2014-cü illərin cari qiymətləri ilə, faizlə**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ÜDM - cəmi** | **77,8** | **81,0** | **84,0** | **84,5** | **81,2** | **81,7** | **82,5** | **81,5** | **82,5** | **81,9** |
| Sənaye | 84,5 | 87,5 | 90,3 | 89,9 | 85,9 | 87,4 | 88,1 | 87,3 | 87,4 | 86,1 |
| Tikinti | 90,4 | 81,8 | 77,3 | 87,0 | 76,1 | 72,0 | 75,3 | 76,0 | 84,5 | 84,3 |
| Kənd təsərrüfatı | 97,8 | 96,9 | 99,4 | 99,0 | 99,2 | 99,7 | 99,3 | 99,4 | 99,4 | 99,8 |
| Ticarət və xidmətlər | 97,8 | 99,3 | 99,0 | 99,1 | 99,0 | 99,2 | 99,7 | 99,7 | 99,8 | 99,8 |
| Nəqliyyat | 37,5 | 46,1 | 76,8 | 82,0 | 75,4 | 75,3 | 78,1 | 77,7 | 77,1 | 78,5 |
| Rabitə | 80,2 | 79,6 | 80,3 | 72,9 | 80,4 | 78,6 | 76,3 | 76,6 | 76,8 | 80,0 |
| Sosial və sair xidmətlər | 31,8 | 43,8 | 40,3 | 31,7 | 48,8 | 47,0 | 49,4 | 49,1 | 51,5 | 55,2 |

Dövlət Statistika Komitəsinin makroiqtisadi göstəricilərə dair məlumatlarına əsasən 1995-2003-cü illər ərzində ÜDM-in orta illik artımı 9 faiz, adambaşına düşən ÜDM 3 dəfə, orta aylıq əməkhaqqı isə 5,3 dəfə artıb. Xarici investisiya qoyuluşları 10 dəfə, daxili investisiyalar 5 dəfə, büdcə gəlirləri 3 dəfə artıb, büdcənin defisiti minimum həddə enib. Özəl sektorun ÜDM-dəki payı da 2003-cü ilə qədər 73 faizə qədər artıb. Rəsmi statistik göstəricilərə görə, 2004-2011-ci illərdə Azərbaycanda ÜDM bir qədər də yüksələrək orta hesabla 14 faiz, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM 9 faiz artıb. Bu müddət ərzində ölkədə adambaşına düşən ÜDM 5 dəfə, ÜDM-də özəl sektorun payı isə 81,9 faizədək artıb.

Xarici borcun ÜDM-ə olan nisbəti 2003-cü ildəki 18 faizdən mövcud 7 faizə kimi aşağı düşüb. Strateji valyuta ehtiyatları 40 milyard dolları ötüb ki, bu da xarici borc həcmindən 8 dəfə çoxdur. Bu dövrdə Azərbaycana qoyulan investisiyalar 2,4 dəfə artıb, bunların 1,5 faizi xarici, 5,5 faizi daxili qoyulan investisiyadır. Həmin dövrdə büdcənin gəlirləri hər il orta hesabla 24 faiz artmışdır[34].

Həmçinin son iki ildə Azərbaycanda qeyri-neft sektoru üzrə ÜDM-in neft sektoru üzrə ÜDM – a nisbətdə artım tendensiyası müşahidə olunur. Ölkə prezidenti öz çıxışlarında bu tendensiyasının qorunmasını dəfələrlə vurğulamış və bunu hökumətin qarşısında strateji vəzifə kimi qoymuşdur. Məhz ölkəyə böyük neft gəlirlərinin daxil olması ilə paralel həyata keçirilən iqtisadi islahatlar, neft pullarının effektiv idarə edilməsi və yönləndirilməsi sayəsində Azərbaycanı 2005-2007-ci illərdə ÜDM-in illik artım templərinə görə dünya liderləri sırasına çıxarmışdı: ölkədə 2005 – ci ildə 26,4 faizlik, 2006 – cı ildə rekord 34,5 faizlik, 2007 – ci ildə isə 25 faizlik ÜDM artımı qeydə alındı. 2008-ci ildə dünyanı bürümüş olan maliyyə-iqtisadi böhrana baxmayaraq Azərbaycan iqtisadiyyatı geriləməyən çox azsaylı ölkələrdən biri idi. Həmin il ÜDM-in 10,8 faiz artımı baş vermişdi.

**Cədvəl 5.**

**Azərbaycan Respublikasında 2005 – 2014-cü illərdə Ümumi daxili məhsulun strukturu, cari qiymətlərlə, milyon manatla**

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014* |
|---|---|---|---|---|---|---|
| **Ümumi daxili məhsul - cəmi** | **12 522,5** | **42 465,0** | **52 082,0** | **54 743,7** | **58 182,0** | **58 977,8** |
| o cümlədən: | | | | | | |
| neft-qaz sektoru | 5 520,9 | 20 409,5 | 25 829,9 | 24 487,3 | 23 778,1 | 21 619,0 |
| qeyri-neft sektoru | 6 055,1 | 19 179,0 | 23 196,1 | 26 864,4 | 30 525,9 | 33 038,3 |
| məhsula və idxala xalis vergilər | 946,5 | 2 876,5 | 3 056,0 | 3 392,0 | 3 878,0 | 4 320,5 |

2012-ci ildə ölkədə 54.7 milyard manat dəyərində və ya əvvəlki illə müqayisədə 2.2% çox ÜDM istehsal olunmuş, adambaşına düşən ÜDM-in həcmi 5884.5 manat və ya 7490.5 ABŞ dolları təşkil etmişdir.

Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin həcmində 9.7% artım müşahidə olunmuş, onun ÜDM-də xüsusi çəkisi 52.7% təşkil etmişdir. ÜDM-in 47.3%-i neft-qaz hasilatı və emalı sahələrinin payına düşmüş və bu sahədə 2011-ci ilə nisbətən 5.0% azalma qeydə alınmışdır.

ÜDM-in artım tempində struktur dəyişiklikləri ötən il ərzində də davam etmiş və 2012-ci ildə iqtisadi artım tamamilə qeyri-neft ÜDM-in hesabına formalaşmışdır.




**Şəkil 1. Neft və qeyri-neft sektorunda ÜDM-in inkişaf dinamikası, ötən ilə nisbətən,%-lə**

Son illər davamlı olaraq artan qeyri-neft sektorunda 2012-ci ildə yüksək artım qeydə alınmış və burada yaranan əlavə dəyərin məbləği 28.5 milyard manat, onun ÜDM-də xüsusi çəkisi 52.7% təşkil etmişdir. Eləcə də, 2012-ci il ərzində sənayenin qeyri-neft bölməsində də ciddi irəliləyişlər əldə edilmiş və bu sahə üzrə məhsul istehsalının həcmi 11.7% artmışdır.




**Şəkil 2. ÜDM-in sahə strukturu, ÜDM=100,0% [35]**

2012-ci ildə özəl sektorun Ümumi Daxili Məhsuldakı payı 81.5% olmuşdur. Hazırda aqrar sektor, sənaye, ticarət, mehmanxana və iaşə xidməti, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı 70-99% arasında dəyişir, məşğulluğun 74.0%-i və ümumvergi daxilolmalarının 71,9%-i özəl sektor tərəfindən təmin edilir.




**Şəkil 3. 2012-ci ildə ÜDM-də özəl sektorun payı, %-lə[35]**

2012-ci ildə iqtisadiyyatın qeyri-neft sahələrində nəzərəçarpacaq artım müşahidə edilmişdir. Əlavə dəyərin həcmi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində əlavə dəyər 18.8%, tikintidə 18.0%, informasiya və rabitədə 15.9%, ticarət və xidmətlər sahəsində 9.6%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 5.8%, sosial və digər xidmətlər sahəsində 5.4% artmışdır.

İlkin hesablamalara görə 2013-cü ildə ölkədə istehsal olunmuş ümumi daxili məhsulun həcmi əvvəlki ilə nisbətən 6,3 faiz artaraq 58,2 milyard manata çatıb. Ümumi daxili məhsulun adambaşına düşən həcmi 6258,3 manat (7977,4 dollar) təşkil edib və 4,9 faiz artıb.

Bu dövrdə cari qiymətlərlə 81,2 milyard manatlıq məhsul və xidmətlər istehsal olunub, məhsul istehsalına sərf edilmiş mal və xidmətlərin dəyəri 26,9 milyard manat və ya məhsul və xidmətlər buraxılışının 33 faizini təşkil edib.

2013-cü ildə iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyərin 13,6 faiz artımı qeydə alınıb, onun ÜDM-də xüsusi çəkisi əvvəlki ildəki 49,1 faizdən 52,5 faizədək yüksəlib. Ümumi daxili məhsulun 40,9 faizi neft-qaz istehsalı və emalı sahələrinin payına düşüb.

2013-cü ildə sənayedə 26,7 milyard manatlıq, yaxud ümumi daxili məhsulun 46,3 faizi qədər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 3,1 milyard manatlıq (5,3 faiz), tikintidə 6,8 milyard manatlıq (11,8 faiz), nəqliyyat və anbar təsərrüfatında 2,8 milyard manatlıq (4,8 faiz), informasiya və rabitə xidmətlərində 1 milyard manatlıq (1,8 faiz) həmçinin, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 4,1 milyard manatlıq (7,1 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində 1,1 milyard manatlıq (1,8 faiz), sosial və digər xidmətlər sahəsində isə 8,5 milyard manatlıq (14,7 faiz) əlavə dəyər yaradılıb.Məhsula və idxala xalis vergilər ÜDM-in 6,4 faizini təşkil edib.

2014-cü ildə ölkəmizdə 58978 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuş, onun 36,7 faizi neft-qaz sektorunun , 56 faizi qeyri-neft sektorunun , 7,3 faizi isə məhsul və idxala xalis vergilərin payına düşmüşdür.

Nominal ÜDM mövcud qiymətlərlə, real ÜDM isə bazis dövrün qiymətlərilə istehsal olunmuş əmtəə və xidmətlərin ümumi dəyərini əks etdirir. Real ÜDM–un göstəricisi qiymətlərin dəyişməsinin təsirinə məruz qalmadığı üçün onun istehsalın artımının ölçülməsi üçün istifadə etmək olar. Dövlət Statistika Komitəsi ÜDM-i real ÜDM metodu ilə hesablayır. [34]

2015-ci ilin beş ayında iqtisadiyyatın qeyri-neft sahələrinin ÜDM istehsalında 7,6 faiz, neft-qaz hasilatı və istehsalı sektorunda isə 2,4 faiz artım müşahidə edilmişdir. Qeyri-neft sahələrinin ÜDM-də xüsusi çəkisi 66,1 faizə çataraq əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,4 faiz bəndi artmışdır.

ÜDM-in 53,4 faizi iqtisadiyyatın istehsal sahələrinin, o cümlədən 36,4 faizi sənayenin, 13,7 faizi tikintinin, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın, 37,5 faizi isə xidmət sahələrinin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmişdir.

## *§3.2 Regionların ÜDM-un artırılmasının əsas istiqamətləri və prqnozlaşdırıması*

Regionların sosial-iqtisadi inkişafı haqqında Respublika Prezidentinin imzaladığı fərmanlarla qəbul edilən, 2004-2008, 2009-2013 və 2014-1018-ci illəri əhatə edən 3 dövlət proqramının yerinə yetirilməsi ilə əlaqədar tədbirləri ölkənin müxtəlif regionlarında iqtisadiyyatın və sahibkarlığın daha intensiv inkişafığna münbit şərait yaratmış, bunun real nəticəsi olaraq – regionlardan vergi ödənişlərinin ümumi daxilolmalardakı payı artmış, ölkədə ədalətli rəqabət mühitinin formalaşdırılması sayəsində vergi siyasətinin və vergi dərəcələrinin iqtisadi inkişafa təsiri daha da yüksəlmişdir. Həm də, Prezidentin 24 noyabr 2014-cü il fərmanına uyğun olaraq , regionlarda çalışan hüquqi və fiziki şəxlər tərəfindən ödənilən vergilərin yerli büdcələrə daxil edilməsinə üstünlük verilmişdir.




**Şəkil 4. Ölkə və regionlar üzrə ÜDM və vergi daxilolmalarının artım tempi %lə [35].**

Diaqramdan göründüyü kimi bu illər ərzində ölkə üzrə ÜDM 3,1 dəfə , regionlarda məhsul buraxılışı isə 3,3 dəfə artmışdır. 2007-2008 – ci illərdən başlayan və təsirləri hələ də ötüşməyən dünya maliyyə böhranı və neftin qiymətlərinin kəskin düşməsi ilə əlaqədar istər ölkə üzrə ÜDM – də , istərsə də regionlar üzrə ümumi məhsul buraxılışının artım tempində aşağı düşmə meyli davam etməkdədir. Lakin bu yavaşıma regionlarda bir qədər aşağı olmuşdur və burada iqtisadiyyatın tamamilə qeyri-neft sektorundan ibarət olduğunu nəzərə alsaq, müsbət məqamları da müşahidə etmək olar.Bunu həmin müddət ərzində regionlardan vergi daxilolmalarının üstün artması da göstərir.

Hesablamalar göstərir ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" həyata keçirildiyi müddət ərzində ölkə üzrə ümumi daxili məhsulun real həcmi 2,6 dəfə artaraq 38 milyard manata çatdı. ÜDM-in adambaşına düşən nominal həcmi 5 dəfə artaraq 4440 manat təşkil etdi. Qeyri-neft sektoru 1,8 dəfə artdı və 2008-ci ilin yekunlarına görə ÜDM-də qeyri-dövlət sektorunun payı 84,5 faizə çatdı. Qeyri-neft sektoruna qoyulan

investisiyanın həcmi 2004-2008-ci illər ərzində 6,2 dəfə artaraq ümumi investisiyaların strukturunda xüsusi çəkisi 2003-cü ildəki 26,8 faizdən 2008-ci ildə 69 faizə çatdırıldı [35].

Dövlət investisiya xərclərində regionlardakı layihələrin həyata keçirilməsinə ayrılan vəsaitin məbləği 2004-cü illə müqayisədə 2008-ci ildə 6 dəfə artaraq 3,9 milyard manat təşkil etdi. Bu isə ümumi investisiyaların 83 faizinə bərabər idi. Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafi ilə bağlı I Dövlət Proqramının icra dövrü ərzində Azərbaycanın müxtəlif bölgələrinə 6,8 milyard manat həcmində dövlət investisiyaları qoyulub. Dövlət proqramının icrası ilə bağlı regionlarda həyata keçirilən layihələrin maliyyələşdirilməsinə beynəlxalq maliyyə qurumlarından 2,2 milyard dollar məbləğində kredit cəlb edildi. Həmçinin özəl sektorun inkişafı üçün böyük həcmdə və əsas etibarilə güzəştli şərtlərlə kreditlər ayrıldı. Ölkə üzrə isə hesabat dövründə bütün maliyyə mənbələri hesabına əsas kapitala qoyulmuş investisiyanın həcmi 33,5 milyard manat təşkil etmişdi və bunun 53,2 faizi daxili, 46,8 faizi isə xarici investisiyalar olmuşdu. 2008-ci ildə istifadə edilmiş investisiyanın həcmi 2003-cü il səviyyəsini 3 dəfə üstələmiş, adambaşına düşən investisiyanın həcmi 2003-cü illə müqayisədə 605,8 manat çox olmuşdu. 2003-cü ildə ümumi investisiyaların həcmində daxili investisiyaların payı 24,8 faiz olduğu halda, 2008-ci ildə bu göstərici 78,6 faiz təşkil etmişdi.

Dövlətin adətən funksional olaraq infrastruktur layihələrinə yönəlməsi, sosial və səhiyyə xidmətlərinin daha effektiv şəkildə səviyyəsinin yüksəldilməsi əsas sosial – iqtisadi fəaliyyətləridir. Lakin regionlarda demək olar ki, əsaslı inkişafın təmin edilməsində eyni zamanda sahibkarlıq və sənayeləşmə payının da yüksəldilməsi çox vacibdir. Belə ki, regionlarda iqtisadiyyatın əsas sahələrində məhsul istehsalının fiziki həcm indeksinə baxdıqda son üç ilin statistik məlumatları bizə rayonlarımız üzrə indeksin azalmasından xəbər verir. Ona görə də dövlət gəlirlərinin də azaldığı bir dövrdə regionlarda ÜDM istehsalının artırılması vacib məsələdir.

Bəs nə etməli sualına isə bir mənalı şəkildə özəl təşəbbüslərin dəstəklənməsi cavabını vermək olar.Belə ki, burada iqtisadiyyatın sektorlarına yönəldilən

investisiyaların həcmi, xüsusilə də xarici və ya daxili investisiyaların həcmi çox önəmlidir. 15 il əvvəl ölkədə xarici investisiyanın həcmi 60-70% faiz təşkil edirdisə, indi bunun yerini daxili investisiya alır. Əslində bu bir tərəfdən dünya bazarındakı risklərin minimumlaşdırılması üçün uğurlu addım olsa da digər tərəfdən xarici valyutanın ölkəmizə axması, və bununla da iqtisadiyyatın böyüməsi üçün vacib olan maliyyə təminatının azalması deməkdir.Ona görə də regionlara Xarici investorların cəlb edilməsi, və heç olmasa iqtisadiyyata yönələn investisiyalarda xarici sərmayənin həcminin toplam sərmayədə nisbətini 45-50% olmasına çalışmaq ölkədə regional inkişafa güclü dəstək olacaqdır.Çünki xarici investor təkcə maliyyə resursları deyil, eyni zamanda xarici təcrübə və innovasiya da gətirməkdədir.

Yerli sahibkarların dəstəklənməsi üçün Dövlət-Sahibkar əlaqələri ciddi şəkildə yeni əsaslarla qurulmalıdır. Sahibkarlar dövlətin neft sərvəti kimi ikinci sərvət olaraq qəbul edilməli, istənilən sahibkarın hüquq və iqtisadi azad-lığının süni əngəllərdən qorunması istiqamətində davamlı addımlar atılmalıdır.İstehsal olunacaq məhsulların yalnız daxili bazar üçün deyil, ixrac qabiliyyətli olması üçün çalışmaq lazımdır. Məlumdur ki, regionların əksər hissəsində kənd təsərrüfatı məhsullarının istehsalı daha çox paya sahibdir, digər tərəfdən ölkədə məşğul əhalini 40 faizə qədəri də bu sektorda çalışır, lakin bu sektoru ölkə üzrə ÜDM-də həcmi isə illər boyu azalaraq 11%-dən 5%-ə qədər düşmüşdür. Ona görə də bu sektora subsidiyalardan daha çox investisiyaların yönəldilməsi vacibdir.

Üçüncü bir məsələ isə təhsil məsələsidir.Əgər dövlət büdcəsində regionlardakı yerli büdcələrə ayrılan vəsaitlərin hansı sahədə daha çox xərcləndiyinə nəzər salsaq, görərik bu 45-50% xərclər təhsil xərclərinə yönəldilir. Lakin bütün bunlarla yanaşı, ölkəmizin regionlarında böyük təhsil investisiyaların yatırılması, regionlarda olan ali məktəblərin hazırkı fiziki vəziyyətinə nəzərən onların yerində böyük və müasir təhsil komplekslərinin yaradılması, və eyni zamandan Universitet-Sənaye iş birliyi əsasında regionun potensialına uyğun kadrların hazırlanması bu mövzuda atılacaq uğurlu addımlardan sayıla bilər. Ümumiyyətlə yeni məzun olan gənclərin işsizlik məsələsi ilə bağlı təhsil-iqtisadiyyat iş birliyi əsasında kadrların hazırlanması çox vacibdir.

Ölkəmizin həm Xəzər yanı ərizələri, həm də də dağlıq əraziləri, bir şox regionları böyük turizm potensialına malikdir.Ona görə də, yerli turizm sənayesinin inkişaf etdirilməsi vacibdir. Bizimlə qonşu olan ölkələrdən turist olaraq Azərbaycana gələnlər üçün viza rejiminin sadələşdirilməsi, xüsusilə Rusiya, İran və Mərkəzi Asiya ölkələrindəki turist potensialının mənimsənilməsi vacib məsələlərdir. Bu regional inkişafın dəstəklənməsində mühüm bir addım olardı.

Azərbaycan Respublikasının 2014-2017-ci illərdə iqtisadi və sosial inkişafının əsas istiqamətlərini müəyyən etməklə əsas makroiqtisadi göstəricilərin, o cümlədən ÜDM-in (real artım, deflyator indeksi, dövlət və qeyri-dövlət sektorunun, neft və qeyri-neft sektorunun payı, onların artım və deflyator indeksləri), ÜDM-in istehsal strukturunun (onların artım və deflyator indeksləri, ümumi buraxılışı, aralıq istehlakı, əlavə dəyəri), ÜDM-in sahə strukturu (onların artım və deflyator indeksləri), o cümlədən respublikada istehsal olunan əsas məhsul növlərinin sahələr üzrə natural göstəricilərinin, əsas kapitala daxili və xarici investisiyaların (onların strukturu və real artım sürətləri), əhalinin pul gəlirləri, xərcləri və onların artım sürətlərinin, orta aylıq əmək haqqının (onların iqtisadiyyatın sahələri, dövlət və qeyri-dövlət sektoru, büdcə və qeyri-büdcə təşkilatları, neft və qeyri-neft sektoru üzrə səviyyəsi və artım sürətləri), əhalinin məşğulluq göstəricilərinin (onların iqtisadiyyatın sahələri, dövlət və qeyri-dövlət sektoru, büdcə və qeyri-büdcə təşkilatları, neft və qeyri-neft sektoru üzrə sayı və artım sürətləri), əhaliyə göstərilən pullu xidmətlərin həcmi və artım sürətinin, idxalın və ixracın proqnoz göstəricilərini özündə əks etdirir **[35].**

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda çıxış edən Prezident İlham Əliyev bildirib ki, müasir dövrdə ölkəmizin sürətli inkişafına nail olmaq üçün kifayət qədər geniş proqramlar icra edilir. Dövlət başçısı qarşıdakı 10 ildə ölkəmizin inkişafı ilə bağlı hədəflərdən danışarkən deyib ki, 2013-2023-cü illərdə Azərbaycan əhalisi yüksək gəliri olan ölkəyə çevrilməlidir."Növbəti 10 il ərzində qarşıya hədəf qoymalıyıq ki, ümumi daxili məhsul 2 dəfə artsın.Bu, çox böyük, çətin hədəfdir. Nəzərə alsaq ki, ümumi daxili

məhsulumuz artıq 3 dəfə artmışdır, indi 3 dəfə artmış iqtisadiyyatı daha 2 dəfə artırmalıyıq" deyən Prezident İlham Əliyev bu məqsədlərə çatmaq üçün dövlət və özəl qurumların birgə fəaliyyət planının hazırlanmasının vacibliyini diqqətə çatdırıb.

Dövlət başçısının səsləndirdiyi fikirlər, xüsusilə də ümumi daxili məhsulun 2 dəfə artırılmasına nail olmaq, özü də bunun qeyri-neft sektoru hesabına təmin olunması çox ciddi islahatların aparılmasını vacib edir: "Hazırda ölkəmiz öz inkişafının yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələdə vergi işçilərinin qarşısına yeni mühüm vəzifələr çıxır.Əvvəla, respublikamızda qeyri-neft sektoru yüksək səviyyədə inkişaf etmiş, güclü infrastruktur sahələri formalaşmışdır.Nəticədə 2010-cu ildən başlayaraq iqtisadiyyatın inkişafının ağırlıq mərkəzi həm ÜDM-in artım sürətinə, həm də investisiya qoyuluşunun həcminə görə qeyri-neft sektorunun üzərinə keçmişdir. 2010-cu ildə ÜDM-in 5 % artımına qarşı qeyri-neft sektorunda artım 7,6%, 2011-ci ildə müvafiq olaraq 0,1%-ə qarşı 9,6% olmuşdur. Eyni zamanda ölkə iqtisadiyyatına qoyulan bütün investisiyanın 2010-cu ildə 60%-i, 2011-ci ildə 70,9%-i qeyri-neft sektorunun payına düşmüşdür. Beləliklə, iqtisadi artımın və investisiya qoyuluşunun əksər hissəsinin qeyri-neft sektorunun payına düşməsi onun daha sürətli inkişafı hesabına dövlət büdcəsinə vergi gəlirlərinin artırılmasını da obyektiv zərurətə çevirir".

2010-cu ildən başlayaraq neft hasilatı azalmağa başlamışdır. Buna müvafiq olaraq 2010-cu ildə sənaye məhsulunun artım sürəti azalaraq 2,6% olmuş, 2011-ci ildə isə 2010-cu ilə nisbətən qeyri-neft sənaye məhsulu 11,1% artdığı halda, bütövlükdə sənaye məhsulu 5%, o cümlədən neft sənaye məhsulu daha çox azalmışdır. Belə vəziyyət istər-istəməz neft sektorundan dövlət büdcəsinə daxil olan gəlirlərin də azalmasına, xüsusilə Neft Fondundan dövlət büdcəsinə ayırmaların məhdudlaşmasına səbəb olur. Həm də bu, müvəqqəti proses deyil. Neft strategiyasının reallaşması başa çatdıqca Neft Fondunun dövlət büdcəsinin formalaşmasında rolu azalacaqdır. Beləliklə, hər iki əsaslı dəyişiklik respublikamızda iqtisadiyyatın inkişafının və dövlət büdcəsinin gəlirlərinin formalaşmasının neftdən asılı olmayan, yaxud az asılı olan yeni konsepsiyasının işlənib hazırlanması vəzifəsini

qarşıya qoyur. Prezident İlham Əliyev "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasının hazırlanması haqqında sərəncamında yaxın 10 il ərzində çoxsahəli, innovasiya yönümlü, səmərəli və davamlı inkişaf edən güclü iqtisadiyyat yaratmağı ölkəmizin irəliyə doğru inkişafının əsas hədəfləri kimi müəyyənləşdirmişdir. Beləliklə, inkişafın ağırlıq mərkəzi, sadəcə olaraq, qeyri-neft sektorunun üzərinə deyil, əsasən onun mütərəqqi texnika, texnologiya, elmi yeniliklər tətbiq edən sahələrinin üzərinə keçəcək.

Ötən müddət ərzində qəbul olunmuş 2 proqramın icrası sayəsində bölgələrdə qeyri-neft sektorunun inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması ilə bağlı sistemli tədbirlər görülüb, əhalinin məşğulluğunun artırılması və yoxsulluğun azaldılması sahəsində mühüm irəliləyişlər əldə olunub. Artıq bölgələrdə fəaliyyət göstərən minlərlə müəssisədə çalışan insanların işlə təmin olunmaları regionlarda işsizlik probleminin tam aradan qalxmasına səbəb olmaqdadır. Hazırda regionlarda yeni iş yerlərinin yaradılması ilə bağlı tədbirlər ən yüksək mərhələyə qədəm qoyub. Yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi bütövlükdə bütün rayonların sosial həyatında ciddi dəyişikliklərə gətirib çıxardı. Ölkədə 1 milyona yaxın iş yerinin yaradılması, iqtisadi fəal əhalinin sayının 4,5 milyon nəfəri ötməsi, yoxsulluğun səviyyəsinin 7,5 faizə düşməsi, minlərlə yeni müəssisənin yaradılması birbaşa regional inkişaf proqramının icrasının məntiqi nəticəsidir.

Hazırda respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoyub və qarşıdakı illərdə yeni meyarlar, texnolji dəyişikliklər, mühüm iqtisadi-sosial çağırışlar meydana çıxır və buna uyğun olaraq daha pozitiv addımlar atılır.Azərbaycan inkişaf etdikcə ölkə qarşısında yeni sosial-iqtisadi məsələlər meydana çıxacaq.

2014-2018-ci illərə dair yeni regional inkişaf proqramının hazırlanmasını yeni dövrün iqtisadi reallıqları, Azərbaycanın qarşısında duran yeni çağırışlar ortaya çıxarır və hökumət müasir inkişaf meyarlarına uyğun olaraq bu iqtisadi və sosial sifarişləri yerinə yetirməyə tam qadirdir.Məlum olduğu kimi, davamlı olaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı proqrama əlavə xarakteri daşıyan tədbirlər planı hazırlanır və həyata keçirilir.Bu əlavələr yeni dövrün tələblərindən meydana

çıxır, innovasiyaların tətbiqi zərurətindən yaranır.Bu gün bölgələrin hər bir guşəsində quruculuq işlərinin ararılması, yeni yolların çəkilməsi, su və kanalizasiya xətlərinin dəyişdirilməsi, qazlaşdırma, məktəb, xəstəxana və digər sosial obyektlərin istifadəyə verilməsi hazırkı müasir inkişaf mərhələsinin reallıqlarıdır. Əsas məqsədlər birbaşa rayonların iqtisadi potensialının səfərbər edilərək tam hərəkətə gətirilməsindən ibarət olacaq, regionların iqtisadi sərvətlərinin qeyri-neft sektorunun əsas bazaları kimi dövriyyəyə cəlb olunması başlıca istiqamətlər təşkil edəcək.

2003-2013-cü illərdə ölkənin ümumi sosial-iqtisadi inkişaf göstəriciləri iqtisadiyyatın idarə olunmasında yeni mərhələnin yetişdiyini göstərir. Bu da öz növbəsində 2020-ci ilədək daha sürətlə inkişaf etmək, iqtisadiyyatı modernləşdirmək, ÜDM istehsalını qeyri-neft sektorunun hesabına 2 dəfə artırmaq üçün rəqabətin təşkili, iqtisadiyyatın şaxələndirilməsi, insan kapitalından səmərəli istifadə etmək və yeni iqtisadi artım mənbələrinin yaradılması kimi tədbirləri ön plana çıxarıb.

Aqrar sahə regionların sosial-iqtisadi inkişafı üçün özül sayılır.Çünki torpaq əvəzolunmaz istehsal vasitəsi hesab edildiyindən nə qədər çox sayda iri sənaye müəssisələri yaradılsa da bu əvəzsiz sərvət əhəmiyyətini itirmir.Xüsusən də yüngül və yeyinti sənaye sahələrinin inkişafı kənd təsərrüfatından kənarda mümkün deyil.Çünki neft məhsulları istehsalı prosesindən başqa sənayenin bütün növ emaledici sahələri ona bağlıdır.Bu baxımdan cari ilin “Sənaye ili” elan olunması da aqrar sektorun inkişafında mühüm rol oynayır.

Doğrudur, 2004-2013-cü illərdə Azərbaycanda kənd əhalisinin sayının 10,2 faiz artması fonunda ümumi kənd təsərrüfatı məhsullarının istehsalı həcmi 3,3 dəfə artıb, əkin sahələrinin 64,2 min hektar genişlənməsi ilə əksər bitki növləri üzrə məhsuldarlığın səviyyəsi yüksəlib, heyvandarlıq məhsulları istehsalı isə 2 milyard 617 milyon manat təşkil edərək ümumi kənd təsərrüfatı məhsulunun strukturunda 49,5 faiz paya sahib olub.

Regionların sosial-iqtisadi inkişafının yeni mərhələsində kənd təsərrüfatının inkişafı əsas hədəf seçilməlidir.Rəqabətin təşkili, iqtisadiyyatın şaxələndirilməsinin dərinləşdirilməsi və yeni iqtisadi artım mənbələrinin yaradılması kimi tədbirlər daha

çox məhz bu sahənin inkişafına yönəldilməlidir.Bunun üçün sözügedən sahədə istehsala ciddi diqqət yetirilməli və aqrar sektorun rəqabətqabiliyyətliliyi diqqət mərkəzində saxlanmalıdır.Hazırda ixrac olunan əsas kənd təsərrüfatı və qida məhsullarına meyvə və tərəvəz, şəkər, bitki yağı, spirtli və spirtsiz içkilər və s. daxildir.Bu məhsulların sayını artırmaq üçün, ilk növbədə, daxili bazarı rəqabətqabiliyyətli məhsullarla təmin etmək lazımdır ki, aqrar sektorda məhsuldarlığın artması bundan sonra sırf ixraca xidmət etsin.

Regionların inkişafı ilə bağlı tədbirlərə sənaye sektorundakı iri mühüm layihələrin həyata keçirilməsini də aid etmək olar. Sənaye sektorunun inkişafına dair dövlət proqramlarının icrasının sürətləndirilməsi isə indistriual iqtisadiyyatın möhkəmlənməsi üçün əsaslı təkan olub. Sənayeləşmənin əsas ssenarilərinə uyğun olaraq bu sahədə yeni və müasir texnologiyaların tətbiqi genişlənib ki, bu da ağır sənaye, elektrotexnika, əlvan metallurgiya, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, tikinti materialları sənayesinin istehsalı müəssisələrinin yaradılmasına səbəb olub. Son 10 il ərzində regionlarda 500-dən çox sənaye müəssisəsi yaradılıb. Təkcə güzəştli kreditlər hesabına ümumi dəyəri 730 milyon manat olan 104 sənaye layihəsi maliyyələşdirilib və bu layihələr üzrə 80 müəssisə istifadəyə verilib, 24-ü üzrə işlər davam etdirilir. Ötən dövr ərzində bu sahədə 3 dəfədən çox artım qeydə alınıb və ÜDM-də sənayenin ən yüksək pozitiv bölmə olduğunu göstərir .

Hazırda Sənayeləşmənin ən innovativ və mütərəqqi modeli olan sənaye texnoparklarının yaradılması isə indistrual cəmiyyətin formalaşmasını güclü zəmin yaratmaqdadır. Xüsusilə də bu proses daha çox regional xarakter almağa yönəlib və Sumqayıt, Gəncə, Mingəçevir, Daşkəsən kimi regionlarda ən müasir texnologiyalar və yüksək məhsuldarlıqlı avadanlıqlar əsasında yenidən qurulan sənaye texnoparklarının yaradılması istiqamətində işlər gedir.

2014-2018-ci illərə dair yeni regional inkişaf proqramının hazırlanmasını yeni dövrün iqtisadi reallıqları, Azərbaycanın qarşısında duran yeni çağırışlar ortaya çıxarır və hökumət müasir inkişaf meyarlarına uyğun olaraq bu iqtisadi və sosial

sifarişləri yerinə yetirməyə əsas məqsəd seçib. Birinci və ikinci dövlət proqramlarında nəzərdə tutulan məqsədələrin yerinə yetirilməsi, xüsusilə də, rayonlardakı mövcud sosial infrastrukturların və komunal xidmət sektorlarının tam yenidən qurulması artıq demək olar ki, başa çatmaq üzrədir və qarşıdakı dövrdə iqtisadi tədbirlərin meyarları tam başqadır.

Dövlət qarşıdakı növbəti beş illik regional inkişaf proqramının əsas ana xətti kimi regionlardakı qeyri-neft ehtiyatlarının səfərbər olunaraq istehsal imkanlarının artırılmasını strateji hədəf seçib. Azərbaycan yaxın 7-8 ildə ümumi daxili məhsulun həcmini 2 dəfə artırmağı, əsas etibarilə qeyri-neft sektorunun hesabına təmin etməyi iqtisadi prioritetlərdən biri kimi müəyyən edib. Proqnozlara görə, iqtisadi artım qeyri-neft sektorunun, sənayenin və informasiya-kommunikasiya texnologiyalarının inkişafına təmin olunacaq. Bunun üçün regionlardakı iqtisadi ehtiyatlara yeni texnoloji yanaşma tələb olunur.

Ortamüddətli dövrdə regionlarda sahibkarlığa dövlət maliyyələşdirilməsi, bankların kredit resurslarının həcminin artırılması, real sektora maliyyə axınlarının gücləndirilməsi əsas istiqamətlərdən biri olacaqdır.

Ölkənin iqtisadi potensialının gücləndirilməsi və onun daha dolğun reallaşdırılması başlıca məqsəddir. Bu ali məqsədlərə ölkənin malik olduğu təbii sərvətlərdən səmərəli istifadə edilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və regionlar arasında mövcud olan diferensiasiyanın minimuma endirilməsi, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin və onun intellektual-texnoloji səviyyəsinin yüksəldilməsi, iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi və optimal iqtisadi strukturun və qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, ölkənin ixrac potensialının artırılması, ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin təmin olunması kimi prioritetlər daxildir. Həmin prioritetlərə uyğun olaraq bölgələrdəki qeyri-neft resurslarının istehsalal prosesinə cəlb olunması, müasir tələblərə cavab verən, ixrac potensiallı qeyri-neft sənaye müəssisələrinin yaradılması, innovasiyaların tətbiqinin genişləndirilməsi zəruridir.

Regionlarda iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsinin genişləndirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, innovasiya fəaliyyətinin inkişaf etdirilməsi, insan kapitalının inkişafının təmin edilməsi, ətraf mühitin qorunması, şəhər və kənd yerlərində infrastrukturun və sosial xidmətlərin inkişaf etdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi kimi alt istiqamətləri əhatə edir.

Respublikamız 2003-cü ildə ÜDM-in həcminə görə, dünyada 108-ci, adambaşına düşən ÜDM-in həcminə görə, 154-cü olduğu halda, 2013-cü ildə bu göstərici müvafiq olaraq 69 və 78 olub. Yəni, Azərbaycan ÜDM-in həcminə görə, dünyanın ən yaxşı 50 ölkəsi sırasında qərarlaşmağa çox yaxındır. Ölkə iqtisadiyyatının son 10 illik inkişaf bumu ÜDM-in nisbi artımının ən azı 2-2,5 dəfə yüksəlməsi üçün güclü zəmin yaradır. Proqnozlara görə, 2020-ci ilədək ölkəmizdə ÜDM-in həcmi 105 milyard manata catacaq. ÜDM-in artımı fonunda Azərbaycanın inkişaf etmiş “50-lik” qrupunda yer alması respublikamızın «orta gəlirli ölkələr» statusundan “ yüksək gəlirli ölkələr” şkalasına daxil olmasını da şərtləndirir. Ölkəmiz həmin qrupun ən yüksək şkalasında yer almaq üçün ən stabil və böyük əminlik doğuran dövlətdir. Bu iqtisadi güc sözsüz ki, ölkənin və onun insanlarının yaxşı yaşayışının göstəricisini müəyyən edir. Üçüncü Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlər sayəsində Azərbaycanın makroiqtisadi sabitliyi daha da möhkəmlənəcək, iqtisadiyyatın diversifikasiyası dərinləşəcək, aqrar sektorda intensiv metodların tədbiqi genişlənəcək, bölgələrdə sənayeləşmə sürətlənərək yeni mərhələyə qədəm qoyacaq, iqtisadi rayonlarda sənaye şəhərciklərinin yaradılması reallaşacaq, regionların ixrac potensialı güclənəcək. Eyni zamanda, regionlarda yeni texnologiyalarından istifadə imkanlarının genişlənməsi sayəsində innovativ

iqtisadiyyata keçid tam təmin olunacaq, biznes və investisiya mühiti daha da yaxşılaşacaq, insanların sosial rifahı və insan kapitalının inkişafı yüksələcək.

Regionall səviyyədə Ümumi Daxili Məhsulun proqnozunu vermək üçün Naxçıvan Muxtar Respublikasının statistik göstəricilərindən istifadə edək.

**Cədvəl 6**

**2000-2014-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ümumi Daxili Məhsulu**

| | Ümumi daxili məhsul (milyon manat) |
|---|---|
| 2000 | 84,9 |
| 2001 | 98,1 |
| 2002 | 118,2 |
| 2003 | 168,0 |
| 2004 | 232,4 |
| 2005 | 305,8 |
| 2006 | 405,7 |
| 2007 | 545,0 |
| 2008 | 795,8 |
| 2009 | 973,6 |
| 2010 | 1171,3 |
| 2011 | 1786,3 |
| 2012 | 2103,4 |
| 2013 | 2339,0 |
| 2014 | 2391.0 |

Cədvəlin məlumatlarından göründüyü kimi 2000-2014-cü illərdə NMR-nın ÜDM-a müsbət dinamika xas olmuşdur (Şəkil 5).

Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məsulun proqnozunu vermək üçün düzxətli tənlikdən istifadə edək:

$$\bar{y}_t = a_0 + a_1 t$$

Burada $\bar{y}_t - y$-in hamarlaşdırılmış qiymətidir,

$a_0$ və $a_1$ – düz xəttin parametrləridir,

$t$ – onların sıra nömrəsi, yaxud vaxt dövrüdür.

$t$ – nin qiyməti həmişə məlumdur, ona görə $\bar{y}_t$ - ni müəyyən etmək üçün $a_0$ və $a_1$ parametrləri tapılmalıdır. Ən kiçik kadratlar üsulunun şərtlərini təmin edən aşağıdakı normal tənlik sisteminin həlli $a_0$ və $a_1$ parametrlərini müəyyən etməyə imkan verir:

$$\left.\begin{aligned} na_0 + a_1\sum t &= \sum y \\ a_0\sum t + a_1\sum t^2 &= \sum yt \end{aligned}\right\}$$

Burada $y$ –sıranın həqiqi səviyyələridir,

$t$ – vaxtdır,

$n$ – səviyyələrin sayıdır.




**Şəkil 5. 2000-2014-cü illərdə NMR-nın ÜDM-nun dinamikası.**

Tənliyi hesablamaq üçün aşağıdakı cədvəli tərtib edək.

**Cədvəl 7**

**2000-2014-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ümumi Daxili Məhsulu**

| İllər | Ümumi Daxili Məhsul (milyon manat) $y$ | $t$ | $t^2$ | $yt$ |
|---|---|---|---|---|
| 2000 | 84,9 | 1 | 1 | 84,9 |
| 2001 | 98,1 | 2 | 4 | 196,2 |
| 2002 | 118,2 | 3 | 9 | 354,6 |
| 2003 | 168,0 | 4 | 16 | 672,0 |
| 2004 | 232,4 | 5 | 25 | 1162,0 |
| 2005 | 305,8 | 6 | 36 | 1834,8 |
| 2006 | 405,7 | 7 | 49 | 2839,9 |
| 2007 | 545,0 | 8 | 64 | 4360,0 |
| 2008 | 795,8 | 9 | 81 | 7162,2 |
| 2009 | 973,6 | 10 | 100 | 9736,0 |
| 2010 | 1171,3 | 11 | 121 | 12884,3 |
| 2011 | 1786,3 | 12 | 144 | 21435,6 |
| 2012 | 2103,4 | 13 | 169 | 27344,2 |
| 2013 | 2339,0 | 14 | 196 | 32746,0 |
| 2014 | 2391,0 | 15 | 225 | 35865,0 |
| **Yekun** | **13575,2** | **120** | **1240** | **158677,7** |

Sistem tənlikdə qiymətləri yerinə yazıb müvafiq hesablamalar aparaq.

$$15a_0+120a_1=13575,2$$

$$120a_0+1240a_1=158677,7$$

Buradan, $a_0= - 525,7$, $a_1=178,84$

Beləliklə əlaqə tənliyi aşağıdakı kimi olacaqdır:

$$\bar{y}_t = a_0 + a_1 t = -525{,}7 + 178{,}84t$$

İndi isə bu model əsasında 2015-2018-ci illər üçün Naxçıvan Muxtar Respublikası üzrə ÜDM-un proqnozunu verək.

2015: $\bar{y}_t = a_0 + a_1 t = -525{,}7 + 178{,}84.16 = 2336$

2016: $\bar{y}_t = a_0 + a_1 t = -525{,}7 + 178{,}84.17 = 2515$

2017: $\bar{y}_t = a_0 + a_1 t = -525{,}7 + 178{,}84.18 = 2693$

2018: $\bar{y}_t = a_0 + a_1 t = -525{,}7 + 178{,}84.19 = 2872$

Beləliklə, bizim hesablamalarımıza görə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun 2015-ci ildə 2336 milyon manat (2015-ci ilin yekunları hələlik hazır olmadığına görə həmin il üzrə də proqnoz hesablanmışdır), 2016-cı ildə 2515 milyon manat, 2017-ci ildə 2693 milyon manat, 2018-ci ildə 2872 milyon manat olacağı gözlənilir.

# NƏTİCƏ

Magistr işində iqtisadiyyatın makrostatistik modeli kimi Milli Hesablar Sisteminin tədqiqi aparılmış, ölkənin sosial-iqtisadi vəziyyətinin qiymətləndirilməsində Ümumi Daxili Məhsulun rolu müəyyənləşdirilmiş, MHS-nin faktiki məlumatları əsasında statistik təhlil aparılmış və aşağıdakı nəticələr əldə olunmuşdur:

-Milli Hesablar Sistemi – iqtisadiyyatda ümumi məcmu istehsalı ölçmək üçün, bir növ mühasibat hesabatı rolunu oynayır. Onun əsas vəzifəsi milli məhsul və milli gəlirin yaranması və istifadəsi prosesinin kompleks təhlili və informasiya təminatıdır. Ümumi şəkildə MHS mühasibat hesabları formasında ikili qeyd prinsipi üzrə doldurulan cədvəllərdir.

-Aparılan statistik tədqiqatlar nəticəsində son dövrlərdə Azərbaycanda neft hasilatının aşağı düşməsi ilə əlaqədar ÜDM-də neft sektorundan azalan hissənin doldurulması, davamlı iqtisadi artımın təmin olunması, eyni zamanda uzunmüddətli dövrdə büdcənin maliyyələşmə problemilə üzləşməsi ehtimalının minimuma endirilməsi məqsədilə bir sıra iqtisadi, hüquqi və institutsional tədbirlərin həyata keçirilməsi əhəmiyyətli hesab edilmişdir.

-2000-2014-cü illərdə ÜDM 12,5 dəfə, adambaşına düşən ÜDM isə 10,6 dəfə artmışdır. Digər makroiqtisadi göstəricilərdə də yüksək artım qeydə alınmışdır. Son 10 ili makroiqtisadi artım aspektindən qiymətləndirsək, son 5 ilin özündə də fərqli tendensiya müşahidə olunmuşdur. Son 5 ildə həm iqtisadi artım, həm də eyni zamanda iqtisadiyyatın şaxələnməsi özünü göstərir. 2010-cu ildən neft sektorunda azalma müşahidə edilsə də bu azalmalar ÜDM-dakı artım tempinin qarşısını ala bilməmişdir. Bu da onunla bağlı olmuşdur ki, qeyri-neft sektorunda 2010-cu ildən başlayaraq kəskin artımlar məhz ÜDM-dakı ümumi artım tempini qoruyub saxlaya bilmişdir.

-Milli Hesablar Sisteminə bütün təsərrüfat subyektləri, bütün iqtisadi əməliyyatlar, təsərrüfat subyektlərinin bütün aktiv və öhdəlikləri haqqında informasiya daxildir. İqtisadiyyatın makrosəviyyədə təhlilində mərkəzi göstərici

ÜDM, ikinci isə ÜMM hesab edilir. Onalrın hər ikisi iqtisadiyyatın istehsal və xidmət sahələrinin fəaliyyətinin nəticəsini əks etdirir. Hər ikisi bir ildə əmtəə və xidmətlərin son dəyər ifadəsini əks etdirir. Onlar cari və sabit (dyişməz) qiymətlərlə hesablanır.

-ÜDM və onun komponentlərinin müqayisəli qiymətlərlə hesablanması, iqtisadiyyatın inkişafının öyrənilməsi və struktur dəyişiklik təhlili üçün zəruridir. Bu qiymətləndirmələrin dəqiqliyi və onların əsasında çıxarıla bilən nəticələr yüksək dərəcədə statistik hesablamaların vasitələrindən və üsullarından asılıdır. ÜDM-in daimi qiymətlərlə hesablanması həm istehsal, həm də xərclər (son istehlak komponentlərinin cəmi kimi) baxımından həyata keçirilə bilər.

-Qiymətlədirmə, ÜDM-in ayrı-ayrı komponentlərinin daimi qiymətlərlə qiymətləndirilməsi və onların toplanması yolu ilə aparılır. Daimi qiymətlərə çevrilmə üsulunun seçilməsi olan qiymətləndirilən göstəricinin xüsusiyyətlərindən və mövcud olan məlumatlardan asılıdır. ÜDM-in daimi qiymətlərlə qiymətləndirilməsi onun müqayisəli dinamikası haqqında məlumatın əldə edilməsinə imkan verir.

-Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsi ÜDM-in hesablanması üçün sahə statistika şöbələrinin və inzibati məlumat mənbələrinin göstəricilərindən istifadə edir. Komitənin sahə şöbələrindən mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən müvafiq dövr ərzində istehsal olunan məhsul və xidmətlərin dəyəri və istehsala çəkdikləri xərclər, fiziki həcm və qiymət indeksləri, əhalinin sayı, ev təsərrüfatlarının xərcləri, pərakəndə əmtəə dövriyyəsi barədə məlumatlar əldə edilir. Bundan əlavə inzibati mənbələrdən məhsula və idxala vergilər, subsidiyalar, valyuta məzənnəsi, dövlət büdcəsinin xərcləri, mal və xidmətlərin idxalı və ixracı haqqında məlumatlardan və s. göstəricilərdən də istifadə edilir.

-ÜDM-in dolğunluğunu təmin etmək məqsədi ilə Dövlət Statistika Komitəsində müşahidə olunmayan iqtisadiyyat üzrə sahə və şöbələr tərəfindən aparılan müayinələrin nəticələri və rəsmi statistika müşahidələrindən kənarda qalan

iqtisadi fəaliyyət növləri üzrə aparılan əlavə hesablamaların nəticələri də ÜDM-in hesablanmasında öz əksini tapır.

-Hazırda, dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da əsasən Milli Hesablar Sisteminin BMT-nin Statistika Komissiyası, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, İqtisadi əməkdaşlıq və İnkişaf Təşkilatı və Avropa Birliyinin Statistika Bürosu tərəfindən 1993-cü ildə qəbul olunmuş variantı istifadə edilir. Metodoloji materialın hazırlanmasında aşağıdakı sənədlərdən istifadə edilir:

a). 1993-cü ilin Milli Hesablar Sistemi (1993 SNA) və 2008-ci ilin MHS (2008 SNA);

b). Avropanın İnteqrasiya edilmiş İqtisadi Hesablar Sistemi (ESA-95);

c).İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT), MDB Dövlətlərarası Statistika Komitəsinin və digər beynəlxalq təşkilatların təsnifatının tətbiqi sahəsində beynəlxalq təcrübəni əks etdirən materialları.

-Yerli sahibkarların dəstəklənməsi üçün Dövlət-Sahibkar əlaqələri ciddi şəkildə yeni əsaslarla qurulmalıdır. Sahibkarlar dövlətin neft sərvəti kimi ikinci sərvət olaraq qəbul edilməli, istənilən sahibkarın hüquq və iqtisadi azadlığının hər hansı əngəllərdən qorunması istiqamətində davamlı addımlar atılmalıdır. İstehsal olunan məhsulların yalnız daxili bazar üçün deyil, ixrac qabiliyyətli olması üçün bütün səyləri göstərmək lazımdır. Ona görə də bu sektora subsidiyalardan daha çox investisiyaların yönəldilməsi vacibdir.

-Ölkəmizin həm Xəzər yanı ərizələri, həm də də dağlıq ərazilərı, bir şox regionları böyük turizm potensialına malikdir.Ona görə də, yerli turizm sənayesinin inkişaf etdirilməsi vacibdir. Bizimlə qonşu olan ölkələrdən turist olaraq Azərbaycana gələnlər üçün viza rejiminin sadələşdirilməsi, xüsusilə Rusiya, İran və Mərkəzi Asiya ölkələrindəki turist potensialının mənimsənilməsi vacib məsələlərdir. Bu regional inkişafın dəstəklənməsində mühüm bir addım olardı.

-Proqnoz hesablamalarına görə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun 2015-ci ildə 2336 milyon manat (2015-ci ilin yekunları hələlik hazır olmadığına görə həmin il üzrə də proqnoz hesablanmışdır), 2016-cı ildə 2515 milyon manat, 2017-ci ildə 2693 milyon manat, 2018-ci ildə 2872 milyon manat olacağı gözlənilir.

# *Ədəbiyyat*


1. *S.M.Yaqubov, A.C.Məmmədov. Sosial-iqtisadi statistika. Dərslik, Bakı,2011*
2. *S.M.Yaqubov, Ə.İ.Əliyev. Statistika. Dərslik, Bakı, 2015*
3. *A.İ.Cabbarova, V.R.Dünyamalıyeva. Milli Hesablar Sistemi. Dərs vəsaiti,2015, unec.gov.az.*
4. *Ə.İ.Əliyev. Statistika. Dərs vəsaiti,Bakı, 2013*
5. *H.P.Q.Muradov.Statistikanın ümumi nəzəriyyəsi. Dərslik, Bakı ,2010*
6. *Ə.İ.Əliyev. Statistikanın nəzəriyyəsi. Dərs vəsaiti, Bakı, 2010*
7. *R.Ş.Məmmədov. "Milli Hesablar Sistemi., Dərs vəsaiti, Bakı 1997*
8. *R.Ş.Məmmədov. "Beynəlxalq statistika". Dərs vəsaiti, Bakı, 1999*
9. *Azərbaycanın Milli Hesbaları. Statistik Məcmuə. Bakı 2015. stat.gov.az.*
10. *Azərbaycanın statistik göstəriciləri ADSK. Səda nəşriyyatı,Bakı, 2015*
11. *Azərbaycanın regionları. Bakı, 2015, stat.gov.az.*
12. *S.M. Hacıyev. Statistikanın ümumi nəzəriyyəsi. Dərslik. Bakı, 2005*
13. *П.Липе. Экономическя статистика, Стат. Очерки, Т.1. – ФСУ Германии,1995*
14. *Экономическая статистика. Учебник / Под ред. Ю.Н.Иванова – М,ИНФРА- М, 2012*
15. *А.В.Яковлева. Статистика финансов, Серия: Студенту на экзамен, Издатель: Экзамен, 2008*
16. *А.В Яковлева.Экономическая статистика (карманный формат), Издатель: Риор, 2009*
17. *А.Е.Суринов. Статистика.Учебник. Издатель: РАГС, 2011*
18. *Теория статистики. Учебник. Под ред. проф. Р.А. Шмойловой. М.2010*
19. *Основы национального счетоводства. Учебник / Под ред. Ю. Н. Иванова, ИНФРА,М,2005*
20. *Э.Ю. Есипова. Система националнkх счетов: краткий курс, финансы и статистика, 2010*
21. *О.Образцова, О. Копейкина. Система национальных счетов, М, 2008*

**22.** *М.А.Рябова. Анализ финансовой отчетности : учебно-практическое пособие / М. А. Рябова. – Ульяновск : УлГТУ, 2011*

**23.** *Финансовая отчетность. Анализ финансово отчетности (основы балансоведения) / В. В. Ковалев, Вит. В. Ковалев. – М. : ТК Велби; Проспект, 2009*

**24.** *Микроэкономическая статистика. Учебник. (Под ред. С.Д.Ильенковой) - М. Финансы и статистика, 2004*

**25.** *М.М.Новиков., И.Ю. Теслюк. Макроэкономическая статистика, Минск БГЭУ, 1996*

**26.** *Л.М. Неганова. Экономическая статистика. Серия: ГумАнитарная литература, Издатель: Юрайт, 2012*

**27.** *Экономика и статистика фирм. Учебник. Под. ред. С. Д. Ильенковой. М.*

**28.** *Финансы и статистика. 2003*

**29.** *Б.И. Башкатов. Международная статистика, М,2013*

**30.** *Т.Курашева. Основы международной социально- экономи ческой статистики, Из-во: МГИМО - Университет, 2011*

**31.** *Статистика.Учебник для \ вузов. (Под ред. Елисеевой). М., 2004*

**32.** *Курс социально – экономической статистики. Учебник для вузов (Под ред. М.Г.Назарова). М. 2010*

**33.** *Ю.Н.Иванов, Л.А.Карасева. и др. Система национальных счетов - инструмент макроэкономического анализа. Учеб. пособие под ред. Ю.Н.Иванова. М.: 1996*

**34.** *www.stat.gov.az.*

**35.** *www.economics.com.az.*